www.musavat.com

# YENİ MÜSAVAT

Xəbər

## Tələbə qız dəm qazından öldü

yazısı səh.14-də

Gündəm

### Türkiyə Rusiyaya qarşı "qırmızı xətt" planını işə saldı



Moskvanın israr elədiyi iqtisadi savaşa Ankara qoşulmaq zorunda qaldı; ekspertlərə görə, vəziyyətdən qardaş ölkə daha tez və daha az itki ilə çıxacaq, nəinki Rusiya...

yazısı səh.9-da

### Türkiyə rusları "boğazdan" sıxa bilər...

yazısı səh.11-də

### Mənzil bazarında durğunluq yanvarda da davam edəcək

yazısı səh.15-də

### İŞİD Azərbaycanı "düşmən ölkə" siyahısına salmadı

yazısı səh.9-da

### Müxalifət Qərbdən əlini üzüb

yazısı səh.6-da

### Davudoğlu sabah Bakıya gəlir

yazısı səh.2-də

### Ölkə siyasətində qadın azlığı: 55 partiya sədrinin arasında xanım yoxdur

yazısı səh.10-da

*Mehman Əliyev:*

### "Müxalifəti İslam dövlətinə bağlamaq istəyirlər..."

yazısı səh.6-da

### Dünyadakı itkilərdən qazanan "supergüc" - ABŞ

yazısı səh.8-də

### Partiyalar Pənah Hüseynin qohumlarının işindən narahatdır

yazısı səh.4-də

### Avtobus sürücülərinə qarşı sərt qaydalar qüvvəyə mindi

yazısı səh.13-də

## Hakimiyyət qətiyyətli addımlara başladı

# İQTİDAR NARDARANI DALANDAN ÇIXARIR - "XİLAS ƏMƏLİYYATI"

Hüquq-mühafizə orqanları qəsəbəyə nəzarəti ələ aldı; Azərbaycan hakimiyyəti yaxşı anlayır ki, indi Nardaranla bağlı məkrli planlar quran xarici və daxili qüvvələrə yerini göstərməyin tam zamanıdır; İran niyə narahatdır-bir gündə üç bəyanat...




yazısı səh.5-də

## Yeni deputat Rəsulzadəni vətən xaini adlandırdı

YAP-ın Gəncə təşkilatının sədri Şərqdə ilk cümhuriyyətin banisini təhqir edən ifadələr işlədib; təkzibə "Yeni Müsavat"ın cavabı: "Faktın həqiqiliyini məhkəmədə sübut edə biləcək dəlillərə malikik"

yazısı səh.7-də



### Hacı Məmmədovla bağlı həyəcanlı məlumatlar

yazısı səh.12-də



*Aqil Abbas:*

### "Mənim bir rus dostum yoxdu e..."

yazısı səh.3-də



### Məzahir Pənahov deputatlara vəsiqələrini payladı

yazısı səh.4-də



## İlham Əliyev Naxçıvana getdi

**Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib. Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qarşılayıb. Azərbaycan prezidenti Naxçıvan Muxtar Respublikası hökumətinin üzvləri ilə görüşüb.**

Prezident İlham Əliyev Naxçıvan Beynəlxalq Hava Limanının "Şərq Terminalı"nın yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olub. Dövlət başçısı hava limanının imkanlarından səmərəli istifadə edilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Prezident İlham Əliyev dekabrın 1-də Naxçıvana səfəri çərçivəsində yenidən qurulmuş Şəkərabad - Babək qəsəbə - Nehrəm - Arazkənd dairəvi avtomobil yolunun açılışında iştirak edib.

# Davudoğlu sabah Bakıya gəlir

**Türkiyənin baş naziri Əhməd Davudoğlu dekabrın 3-də Bakıya səfəri zamanı Azərbaycandan bu ölkəyə qaz nəqlinin artırılmasını müzakirə edəcək.**

Virtualaz.org saytı xəbər verir ki, bu barədə vzqlyad.ru Bakıdakı mənbələrə istinadən məlumat yayıb.

Mənbə bildirib ki, Moskva ilə Ankara arasında münasibətlərin kəskinləşməsi fonunda baş nazir iki ölkə arasında əməkdaşlıq məsələləri ilə yanaşı Azərbaycanın Türkiyəyə satdığı təbii qazın həcminin artırılmasını da müzakirə edəcək.

Qeyd edək ki, Azərbaycan Bakı-Tiflis-Ərzurum kəməri ilə Türkiyəyə ildə 6 milyard kubmetr qaz satmalıdır. Lakin son illərdə Azərbaycan tərəfi müqavilədə göstərilən həcmdə qaz verə bilməyib.



"Ekspertlər Azərbaycanın Türkiyəyə qaz nəqlini artıra biləcəyinə şübhə edir"- deyə mənbə bildirib.

Gözlənilir ki, Davudoğlunun səfəri zamanı Rusiyanın türk TIR-larına qapıları bağlamasından sonra yükdaşımalar sahəsində yaranmış kritik vəziyyət də müzakirə olunacaq.

Türkiyə tərəfi Orta Asiya respublikalarına yükdaşımaların Xəzər dənizi üzərindən həyata keçirilməsi üçün Bakıdan liman və bərə tariflərini aşağı salmağı xahiş edir.



## Şəhid əsgərimiz dəfn edildi

**Ermәni silahlı bölmələri ilə döyüşdə şəhid olan Azərbaycan Ordusunun əsgəri Elşən Aydın oğlu İsmayılov dekabrın 1-də dəfn edilib.**

APA-nın məlumatına görə, Füzuli istiqamətində şəhid olan əsgər dünən doğulduğu Tovuz rayonunun Əhmədabad kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov və rayonun idarə, müəssisə rəhbərləri, şəhidin xidmət etdiyi hərbi hissənin komandiri və hərbçiləri iştirak edib. Çıxış edənlər E. İsmayılovun cəsur, vətənini sevən vətəndaş olduğunu, döyüş tapşırıqlarını daima canla-başla yerinə yetirdiyini bildiriblər. Əsgərlərin yaylım atəşindən sonra şəhid torpağa tapşırılıb.

## Moskvada azərbaycanlının rəhbərlik etdiyi cinayətkar dəstə saxlanıldı



**Moskvada azərbaycanlının rəhbərlik etdiyi mütəşəkkil cinayətkar dəstənin üzvləri saxlanılıb. APA-nın məlumatına görə, Rusiyanın Narkotik Vasitələrin Dövriyyəsinə Nəzarət Federal Xidmətinin Moskva vilayəti üzrə bölməsindən bildiriblər ki, cinayətkar dəstə narkotik vasitələrin satışı ilə məşğul olub.**

Məlum olub ki, 37 yaşlı azərbaycanlı marixuana satışına anası, qardaşı və onun həyat yoldaşını, habelə keçmiş həyat yoldaşını cəlb edib.

Saxlanılan şəxs marixuananı tanışından alıb və qohumlarının köməyi ilə onu xüsusi dozalarda qablaşdırılıb. Qrupa həmçinin Rusiya və Özbəkistan vətəndaşları daxil olub. Onlar əsasən satış məsələləri ilə məşğul olublar. Bu şəxslər narkotik vasitələri paytaxtın şərq və cənub-şərq ərazisində yerləşən, özlərinin çalışdığı restoranlarda satıblar. Üç mənzildə aparılan axtarış zamanı əməliyyatçılar 3 kq marixuana aşkar ediblər.

Saxlanılan şəxslərə qarşı Rusiya Cinayət Məcəlləsinin böyük həcmdə narkotik vasitələrin satışı maddəsi üzrə cinayət işi başlanılıb.

## Bu gün Tale Bağırzadənin məhkəmə qərarından şikayətinə baxılacaq

**"Müsəlman birliyi hərəkatı" adlı təşkilatın sədri Tale Bağırzadə barəsində həbs-qətimkan tədbirinin seçilməsinə dair məhkəmə qərarından apelyasiya şikayəti verib.**

"Report"un xəbərinə görə, bu barədə onun vəkili Cavad Cavadov bildirib. Apelyasiya şikayətinə dekabrın 2-də Bakı Apelyasiya Məhkəməsində baxılacaq.

Qeyd edək ki, T.Bağırzadə noyabrın 26-da Nardaran qəsəbəsində polisin keçirdiyi əməliyyat zamanı tutulub. Onun barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

## Məhkum ağzını tikib ölüm aclığına başladı

### Ömürlük əlil barəsindəki qətimkan tədbirinin dəyişdirilməsini tələb edir

**Şüvəlandakı 3 saylı İstintaq Təcridxanasında saxlanılan 1-ci qrup əlil Rauf Sultanov ölüm aclığına başlayıb. Ağzını iynə ilə tikən məhkum barəsində verilmiş qərardan narazıdır. Belə ki, noyabrın 24-də Bakı Apelyasiya Məhkəməsində Rauf Sultanovun apelyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib. Hakim Vüqar Məmmədovun sədrliyi ilə keçirilən prosesdə Rauf Sultanovun apelyasiya şikayəti üzrə ilkin dinləmə olub. Hakim V.Məmmədov Xəzər Rayon Məhkəməsinin R.Sultanov barəsində çıxardığı hökmü ləğv edib və işin yenidən birinci instansiya məhkəməsində araşdırılması barədə qərar qəbul edilib. Qeyd edək ki, Xəzər Rayon Məhkəməsinin hökmü ilə Rauf Sultanov 5 il 2 ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan Rauf Sultanov apelyasiya şikayəti verərək barəsində bəraət hökmünün çıxarılmasını istəyib.**

Rauf Sultanov Bakı şəhər sakini Naidə Manafovadan 3500 manat borc pul alıb. Borc sahibi isə 15 gün sonra Nəsimi Rayon Polis İdarəsinə şikayət edib.

Onun şikayəti əsasında Rauf Sultanova Cinayət Məcəlləsinin 178.1-ci (dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb. İstintaq dövründə Rauf Sultanov işdə adı zərərçəkən kimi keçən, faktiki isə borc sahibi olan şəxsə borcu qaytarıb. Anadangəlmə epilepsiya xəstəsi olan, 1-ci qrup əlil Rauf Sultanov mobil telefonların alqı-satqısı ilə məşğul olduğunu, ilkin dindirmə zamanı xəstəliyi ilə əlaqədar borcunu gecikdirdiyini deyib. Onun hazırda aclıq etməsi isə hakim V.Məmmədovun barəsindəki həbslə əlaqəli hökmü dəyişməməsi ilə bağlıdır. R.Sultanov tələb edir ki, məhkəmədə onun işinə baxıldığı müddətdə onun həbsi digər qətimkan tədbiri - məsələn, ev dustaqlığı və ya başqa yerə getməmək haqda iltizamla əvəz olunsun.

Qeyd edək ki, R.Sultanov 2012-ci ildə digər bir maddə ilə ittiham olunub. Həmin ittiham üzrə o, cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkib. Naidə Manafovanın şikayətindən sonra isə onun barəsindəki cəza növü dəyişdirilərək həbsə alınıb. Həmin cəzanın müddəti 2015-ci il dekabrın 2-də bitir. Lakin hakim V.Məmmədovun verdiyi qərara görə, R.Sultanov Xəzər Rayon Məhkəməsində işə baxılana qədər həbsdə saxlanılmalıdır.

**E.MƏMMƏDƏLİYEV**

## Hoteldə öldürülən bankirin qatillərinə ömürlük və 20 il həbs

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Avropa" hotelinin idman zalında öldürülən "Zaminbank"ın Nəsimi filialının müdiri Azər Məmmədovun qətlə yetirilməsində təqsirləndirilən Mövlud Səfərov və Sənan Quliyevin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Səbuhi Hüseynov sədrlik edib. Prosesdə dövlət ittihamçısı çıxış edib. O, çıxışında Sənan Quliyevin ömürlük, Mövlüd Səfərovun isə 20 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Məhkəmə prosesi dekabrın 8-nə təxirə salınıb.

Xatırladaq ki, bu il aprelin 21-də hotelin nəzdində yerləşən idman zalında münaqişə zəminində Bakı şəhər sakinləri, 1985-ci il təvəllüdlü Azər Aydın oğlu Məmmədov ürək nahiyəsindən 3 bıçaq xəsarəti və 1971-ci il təvəllüdlü Ruslan Zakir oğlu Əfəndiyev döş qəfəsinin ön səthinin sol tərəfindən kəsilmiş 2 bıçaq xəsarəti alıb.

A.Məmmədov aldığı xəsarətdən hadisə yerində ölüb. R.Əfəndiyev isə xəstəxanaya yerləşdirilib və həkimlərin səyi nəticəsində həyatını xilas etmək mümkün olub.

Hadisəni törədən Bakı şəhər sakini, 1987-ci il təvəllüdlü Sənan Təvəkkül oğlu Quliyev və onun dostu Mövlud Səfərov tutulub. S.Quliyev və M.Səfərov Cinayət Məcəlləsinin 221.2.1, 221.2.2, 120.2.1, 120.2.2, 120.2.3, 29, 120.2.1, 29, 120.2.2, 29, 120.2.3 və 29,120.2.7-ci maddələri ilə ittiham ediliblər.

## Gürcüstanın müdafiə naziri Bakıda

**Dekabrın 2-də Gürcüstanın müdafiə naziri xanım Tinatin Xidaşelinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfər edəcək.**

Virtualaz.org Müdafiə Nazirliyinə istinadən bildirir ki, səfər çərçivəsində qonağın nazirlikdə görüşləri planlaşdırılır. Gürcüstanın müdafiə nazirinin səfəri dekabrın 3-dək davam edəcək.

## Nardaranda qara bayraqlar yığışdırıldı

**Dekabrın 1-də Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Nardaranda birgə əməliyyat keçirib. APA-nın məlumatına görə, Nardaran qəsəbəsinin mərkəzi yollarında və meydanında, həmçinin qəsəbəyə giriş-çıxış yollarında polis nəzarəti davam edir. Qəsəbə sakini Natiq Kərimovun APA-ya verdiyi məlumata görə, qəsəbəyə gəlmiş daxili işlər nazirinin müavini Vilayət Eyvazov sakinlərlə söhbət edib.**

V. Eyvazov sakinlərlə profilaktik söhbət aparıb. Onları polisin qanuni tələblərinə əməl etməyə çağırıb.

Bakı Şəhər İcra Hakimiyyətinin əməkdaşları qəsəbənin küçə və meydanlarını radikal dini simvollardan təmizləyib. Mərkəzi küçələrdəki şüarlar, digər elementlər yığışdırılıb, barrikadalar təmizlənib.

Məlumata görə, keçirilmiş əməliyyat nəticəsində saxlanılanlar var. Qəsəbədə bəzi evlərdən silah-sursat aşkar olunaraq götürülüb.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:



**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 268 (6296) 2 dekabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Türkiyəni "Su-24" qırıcısını vurduğuna görə Rusiyadan üzr istəməyə çağıran Yazıçılar Birliyinin katibi Rəşad Məcidə ilk dəstək verən yazıçı-deputat Aqil Abbas da bu, günlərdə xeyli ictimai qınağa tuş gəldi. Fəaliyyəti boyu türkçülük mövqeyindən çıxış edən, Rusiyanın dəstəyi ilə Qarabağın işğal olunmasından bəhs edən əsərinə film ("Dolu") çəkilən Aqil Abbasın Türkiyə əleyhinə mövqe sərgiləməsi gözlənilən olmadı. Odur ki, deputata müraciət etdik.**

# "Mənim bir rus dostum yoxdu e..."

## Aqil Abbas: "Üzr istəmək sözündən yapışıblar, o biri sözlərimdən də yapışsınlar da..."



***- Aqil bəy, dostunuz Rəşad Məcidi müdafiə etməyiniz sizə baha başa gəldi...***

- Niyə baha başa gəldi ki?

***- Ən azı ictimai rəy sizin əleyhinizə işlədi.***

- Mən ictimai rəyin fikri ilə oturub-durmalıyam? Başa düşmədim, deməli, mən hamı kimi düşünməliyəm?

***- Seçkilərə qatılanda, səs istəyəndə, mandat alanda məgər siz ictimai fikri, seçicinin rəyini nəzərə almırsınız?***

- Mənim səs istədiyim insanlar mənim əleyhimə çıxmayıblar. Əleyhimə çıxan başqa adamlardır. Məgər mən onlar kimi düşünməliyəm? Mən öz fikrimi demişəm ki, bəli, bu hadisənin olması pis nəticələrə gətirib çıxarıb. Dəfələrlə məqalələr də yazmışam ki, Rusiya Türkiyəsiz, Türkiyə Rusiyasız keçinə bilməz... Bilirsiniz niyə? Rusiyada 25 milyon türk yaşayır. Bu, balaca rəqəm deyil, Rusiyada hər 5-6 adamdan biri türkdür. İkinci bir tərəfdən, əgər ayağa qaldırarsansa, türklərlə Rusiyanı məhv etmək olar. Eyni zamanda Türkiyə Rusiyasız yaşaya bilməz. Ən azı bunun 25 milyon qardaşı orda yaşayır. İki ölkənin münasibətləri yaxşı olmalıdır ki, onların da durumu normal olsun. Digər tərəfdən, orda nə qədər türk iş adamları var. Bütün dünya iki xalqı sevmir, rusları və türkləri. İdman oyunlarına baxın, Türkiyə, ya Rusiyanın hansısa klubu Almaniyada bir fransız klubu ilə oynasın, məhz fransızlara azarkeşlik edənlər çox olacaq. Çünki türk və rusu sevmirlər. Türkiyəni Avropa Birliyinə niyə götürmürlər?

***- Bunlar ayrı söhbətin mövzusudur...***

- Qoy mən fikrimi tamamlayım da. Mən Rusiya və Türkiyənin münasibətlərinin möhkəmlənməsini, bir-birinə yaxın olmasını arzulayıram. Çünki bunların başqa variantı yoxdur.

***- Rusiya rəhbərliyinin aqressiyasının qarşılığında Türkiyənin dövlət və hökumət başçıları yenə də müttəfiqliyə sadiqlik nümayiş etdirir. Yəqin ki, siz də bunun fərqindəsiniz.***

- 3-4 gün ondan qabaq bir yerdə deyildilərmi? Rusiya rəhbərliyi dedi Ərdoğan igid oğlandır. Bir-biriləri haqqında xoş sözlər dedilər. Bəli, Putinin "bərk getməsi" onun zəifliyidir. Hər şeyi danışıqlarla yoluna qoymaq olardı. Yox, mən sənin tələbəni qovacağam, ya iş adamlarını ölkədən çıxaracam...Bu da ona, Rusiyaya yaraşmayan bir şeydir. Hədə dili ilə danışmaq da Putinin zəifliyidir. Hədə dili ilə danışmazlar. Xarici işlər nazirləri var, buyursunlar, üz-üzə oturub danışsınlar, görsünlər məsələnin kökü hardadır. Mən ona görə deyirəm ki, Türkiyə Amerikanın "dudka"sına getdi. Bütün dünya Türkiyəni müharibəyə soxmaq istəyir. Mən dəfələrlə yazmışam ki, "Türkiyə, ehtiyatlı ol, İraqdan, Suriyadan, Liviyadan sonra səni parçalayacaqlar!" Məgər bu yöndə iş getmir? Türkiyəni parçalamaq üçün pullar buraxılmır, PKK-ya silah satılmır? Bu gün hətta Ankaranın mərkəzində terror hadisələri baş verir. Mənim Türkiyəyə ürəyim yanır. Türkiyə iki dünya müharibəsinin birindən respublika kimi, ikincisindən də sağ-salamat çıxıb. İndi Türkiyəni üçüncü dünya müharibəsinə sürükləyirlər ki, məhv eləsinlər, getsin. Mən onda Türkiyənin yanındayam. Yoxsa hamı olub türkpərəst... Mən adlar çəkmək istəmirəm, amma çəkə də bilərəm. SSRİ zamanında sevinə-sevinə yüyürüb gedən, komsomol mükafatı alan, Rusiyada oxuyan adam indi türkpərəst olub. Mənim bir rus dostum yoxdu e...Heç rus tanışım da olmayıb. İki dəfə də Moskvanı görmüşəm, o da ezamiyyətdə olarkən. İki dəfə də Yessentukiyə getmişəm. Mənim gördüyüm Rusiya budur. Heç rus dilində də doğru-düzgün danışmıram. Nə oldu mən oldum rusçu, başqası oldu türkçü? Məsələn, hörmət etdiyim şair Məmməd müəllim (İsmayıl-E.P.) deyir ruslar bizim başımıza bu oyunları açıblar. Onda "Komsomol mükafatı" veriləndə ataydın sifətlərinə, deyəydin "istəmirəm". 20 Yanvardan sonra ataydın, deyəydin sizin mükafatınız mənə lazım deyil! Niyə atmadın? İndi mən olmuşam ruspərəst, o olub türkpərəst? Nədi-nədi Türkiyədədir?

***- Bütün bunlar sizin məhz Türkiyəni üzr istəməyə çağırmağınıza verilən reaksiyadır. Digər fikirləriniz bəlkə də bu qədər rezonans doğurmazdı.***

- Üzr istəmək məsələsini hamı şişirdir, amma bütövlükdə mənim açıqlamamı oxumurlar.

***- Aqil bəy, bir ölkə onun hava sərhədini aşsüzənə döndərən qırıcını vurduğuna görə niyə üzr istəməlidir? Əslində sizin qarşı tərəfi üzr istəməyə çağırmağınız daha çox gözlənilən idi. Niyə bu mövqedən çıxış etdiniz?***

- Mənə zəng etdilər ki, Rəşad belə bir söz deyib. Dedim, Rəşad haqlıdır, gərək bu məsələ olmayaydı. Çünki bu, bizim başımızda çatlayacaq. Rusiya ilə Türkiyənin yaxınlaşması erməni partladırdı. İndi bu vəziyyətə görə ən çox sevinən kimdir? Biri yazır ki, biz Qarabağ savaşında döyüşmüşük, ruslarla türklər vuruşsa, gedib Türkiyədə də savaşacağıq. Ə, get, ağlına dua yazdır. Niyə gedib Qarabağda vuruşmursan? Bilirsiniz məsələ necədir? Buna "vətənşüvənlik" deyirlər. Mən Rusiyanın xeyrinə hələ bir cümlə yazmamışam... Bir cümlə... Nə yazıçı, nə jurnalist kimi. Əksinə, əsərlərimdə həmişə rusları vurmuşam. Elə "Dolu" romanını gözünüzün qabağına gətirin də...Yəni biz erməni ilə yox, rusla vuruşmuşuq, başımıza bu oyunları ruslar gətirib. Mən elə bunu yazan adamam, nə təhər oldu ruspərəst oldum?! Amma bunlar vətənpərvər oldular? Mən bunu deyirəm. O adamlar ki, deyir bu, ruslara satılıb, ruslara satılanları hamı tanıyır. Zərdüşt Əlizadə həmişə İran və Rusiyanın xeyrinə oynayan adamdır, indi olub türkçü, özünə də "türk" demir, mən olmuşam rusçu. Mən belə şeyləri qəbul etmirəm.

***- Siz sanki son sözünüzü dediniz, izahatsız-filansız, özü də Türkiyəni günahkar statusunda təqdim etdiniz. Yenə də "Türkiyə üzr istəməlidir" fikrində qalırsınız?***

- Son sözümü deməmişəm axı... İndi elə olmasın ki, kimsə mənə sözümü yedirtmək istəyir. Bəli, bir-birilərindən üzr istəməlidirlər. Türkiyə də üzr istəməlidir, Rusiya da. O biri bugünkü işinə görə üzr istəməlidir ki, bu addımları atmaqla mən də səhv elədim. Bu hadisə Türkiyəyə böyük zərbə oldu.

***- Ancaq Avropa Birliyi Türkiyəyə görünməyən şəkildə qucaq açıb...***

- Boş şeydir, baş qatmaqdır, görəcəksiniz. Özü də nə təhər qucaq açdı? Türkiyədən Avropaya gedən qaçqın ərəblər geri qayıtmalıdır. Onlar hamısı Türkiyəyə qayıdacaq, yerləşdiriləcək. Buna görə də Türkiyəyə 3 milyard avro verəcəklər. Türkiyə özü 2 milyondan çox ərəbə 7-8 milyard xərcləyib. O biri ərəbləri də geri qaytaracaqlar ki, "al, bunları da sən saxla!" Niyə? Qıran, ölkəsini dağıdan, Suriyanı, İraqı məhv edən sən, mən niyə saxlamalıyam? Vəd verilir ki, ondan sonra sən Avropaya vizasız gələcəksən. Hələ gələcək, gəlməyəcək, dəqiq bilinmir. Türkiyəni Avropa Birliyinə heç zaman qəbul etməyəcəklər. Mən həmişə çıxışlarımda, yazılarımda demişəm ki, Türkiyə, üzünü Şərqə, Çinə, türk respublikalarına, Rusiyaya çevir, onda Avropa yalvaracaq ki, getmə, gəl bizə. İndi gördülər ki, Rusiya ilə yaxınlaşır, münasibətlər tənzimlənir, dərhal bu hadisələri törətdilər ki, Rusiya ilə Türkiyə düşmən olsun. Təbii ki, bundan o biri qüvvələr xeyir görəcək, məsələ budur. Şübhə etmirəm ki, iki dövlət arasında savaş olmayacaq. Bu, heç kəsə xeyir gətirməz. Özü də savaş olsa belə, Türkiyə tək vuruşacaq, NATO qarışmayacaq.

## "Rəşad Məcidin üstünə düşmüşdülər, onu müdafiə etdim"



Uzaqbaşı qırıcı verəcəklər. Amerika Saakaşviliyə dedi, "bərk dur, dalındayam", nə oldu, durdumu Gürcüstanın arxasında? Bomba atılanda Türkiyəyə atılır, Vaşinqtona, Nyu-Yorka, ya Hyustona atılmır e... Mən bütün bu sözləri Türkiyəni sevdiyimə, onun durumuna ağrıdığıma görə demişəm.

***- Amma burada Türkiyənin dövlət olaraq qüruru məsələsi var. Ona görə də üzr istəməyəcəyini qəti şəkildə bildirib...***

- Amma deyir, "təəssüflənirik". Pilotun cənazəsini necə yola saldılar? Həmçinin deyirlər, biz rus qırıcısı olduğunu bilmirdik, üstündə nişanı yox idi. Deməli, bilsəydi, vurmayacaqdı. Özləri özlərini təkzib edirlər. Heç olmasa sözlərinin arxasında duraydılar. Biri deyir, təəssüf edirik, başqası deyir, yenə vuracağıq...

***- Azərbaycan bu mərhələdə barışdırıcı rol oynaya bilərmi?***

- Təbii ki. Həm Azərbaycan, həm də Qazaxıstan bunların arasında vasitəçi ola bilər, yəqin ki, olacaqlar.

***- Deputat qrupu yaradılarsa, Rusiyaya gedərsinizmi?***

- Yox, mən Rusiyanı sevmirəm, getməyə də həvəsim yoxdur. Amma Türkiyəyə gedərəm, niyə getmirəm? Qardaşlarımızdır. Onsuz da həftə səkkiz, mən doqquz gedirəm. Dostlarım var, yazıçılar, generallar arasında...

## "Mən ictimai rəyin fikri ilə oturub-durmalıyam? Başa düşmədim, deməli, mən hamı kimi düşünməliyəm?"

***- Dostlarinizdan qınaq gəlmədi?***

- Yox, əksinə, mənə sosial şəbəkədə yazdılar ki, Aqil bəy, narahatlığınızı başa düşürük, biz də narahatıq. Məsələn, Avrasiya Yazarlar Birliyinin sədri Yaqub Öməroğlu sosial şəbəkədə Rəşad Məcidə dəstək oldu. Baxıram, gülməyim gəlir, elə adamlar türkçü olub ki...

***- Hakimiyyət düşərgəsindən də sizin mövqeyinizi təqdir edən olmadı...***

- Heç tənqid də olunmadım axı. Qardaş, mən bir yazıçıyam, vətəndaşam, bir türkəm. Bu ölkədə hələ demokratiya, toleriantlıq yoxdur. Bu ölkədə hamı adamı məhv edər. Hamı olub Türkiyənin yanında. Harda yanındasan, ə? Dünənəcən Rusiyanı tərifləyənlər indi "Türkiyənin yanındayıq" deyir. Azərbaycan Türkiyənin yanındadır, bəli, lap müharibə başlasa da Türkiyənin yanında olacaq. Çətin anda mən olacağam Türkiyənin yanında, mənə qarşı söz deyənlər yox. Qarabağ savaşında hardaydı bu adamlar? Ancaq o zaman mən səngərdəydim. Siz əsgər olanda yanınıza mən gəlmişdim, əsgər yanına əliboş getməzlər deyib hədiyyə ilə gəlmişdim. O zaman bu adamlar hardaydı? Məni ittiham edənlərin biri desin ki, Qarabağın yolunu tanıyıram. Tanıyırlar, amma "çerez Yerevan" gəlib. Gəlib orda araq içib, separatçıların böyüyü ilə şəkil çəkdirib...Ramil Səfərovu "cinayətkar" adlandıran, xocalılıları təhqir edən olub türkçü, mən olmuşam erməni dəyirmanına su tökən, ruspərəst. Mən heç rusca normal danışmıram.

***- Maraqlıdır, İradə xanım da sizə irad bildirdimi? Çünki bu məsələyə onun fərqli yanaşmasından xəbərimiz var.***

- İradə xanım dedi, gərək üzr istəmək sözünü deməyəydin, amma o biriləri düz demisən... Hamı bilsin ki, mən dostumu darda qoymamışam. Rəşad Məcidin üstünə düşmüşdülər, mən də onu müdafiə etdim.

***- Amma siz dostunuzu müdafiə etməklə qardaş dövləti ittiham etdiniz...***

- Mən bütün dediklərimdə haqlıyam. Üzr istəmək sözündən yapışıblar, o biri sözlərimdən yapışsınlar da. Elementar bir şey deyim, Türkiyəyə 20 milyard ziyan dəyib. Mən bundan narahatam...

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**

# Məzahir Pənahov deputatlara vəsiqələrini payladı

## Milli Məclisin komitələri və komissiyaları formalaşdırıldı

**Dekabrın 1-də V çağırış Milli Məclisi spiker Oqtay Əsədovun sədrliyi ilə növbəti plenar iclasını keçirdi.**

Gündəliyin səsə qoyulmasından sonra spiker iclasda MSK sədri Məzahir Pənahov başda olmaqla qurumun üzvlərinin də iştirak etdiyini bildirdi. Qeyd etdi ki, 2005-ci ildən etibarən yeni bir ənənə yaranıb və seçkilərdən sonra MSK üzvləri deputatlara vəsiqələri təqdim edir. O.Əsədov bildirdi ki, azad və şəffaf şəraitdə keçirilən seçkilər əsasında yeni parlament formalaşıb. "Bütün beynəlxalq qurumlar Azərbaycanda keçirilən parlament seçkilərini azad və ədalətli seçkilər kimi qiymətləndirib. Avropa Şurası Parlament Assambleyası da seçkilərə yüksək qiymət verib" deyə, spiker əlavə etdi və MSK rəhbərliyinə təşəkkürünü bildirdi.

Tribunaya qalxan MSK sədri Məzahir Pənahov çıxış edərək seçkilərin demokratik, azad və şəffaf şəraitdə keçirildiyini dedi. Bildirdi ki, heç kəs seçkilərin şəffaf olmadığı barədə fikirlər irəli sürə bilməyib. Çünki seçkiləri müşahidə edən bütün subyektlərə seçkiləri izləmək üçün tam şərait yaradılıb. Təkcə ölkə daxilində 70 min müşahidəçi seçkiləri müşahidə edib. M. Pənahov azad və ədalətli seçkilərin keçirilməsi üçün ilk şərtin siyasi stabillik olduğunu söyləyib. MSK sədri seçkilərin şəffaf olması üçün veb-kameraların tətbiqinin də mühüm addım olduğunu vurğulayıb. O, Milli Məclisdə çoxlu sayda partiyaların üzvlərinin təmsil olunduğuna diqqət çəkdi və bütün deputatları təbrik etdi.



Bundan sonra M.Pənahov deputatlara vəsiqələrini təqdim etdi. İlk olaraq spiker O.Əsədov deputat vəsiqəsini aldı və daha 123 deputata vəsiqələr verildi.

İclasda parlamentin komitə sədrlərinin müavinləri bəlli oldu. Belə ki, 15 komitənin sədr müavinləri seçildi. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Rövşən Rzayev, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyev oldu.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Kamran Nəbizadə, Aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyev, Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyev seçildi. Regional məsələlər komitəsinin sədr müavini Fəttah Heydərov, Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev, Mədəniyyət komitəsinin sədr müavini Jalə Əliyeva, İnsan hüquqları komitəsinin sədr müavini Yevda Abramov, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva təyin edildi.

Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Sahibə Qafarova, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Xanlar Fətiyev, Gənclər və idman komitəsinin sədr müavini Ülvi Quliyev seçildi.

Milli Məclis Hesablayıcı komissiyasının üzvləri də seçildi. İsa Həbibbəyli Elm və təhsil komitəsinin sədri seçildiyindən komissiyanın tərkibindən çıxarılıb. Fəttah Heydərov Hesablayıcı komissiyanın üzvü təyin olunub.

Milli Məclisdə İntizam komissiyasının təşkil edilməsi haqqında qərar qəbul edilib. İntizam komissiyasının tərkibinə Ağacan Abıyev, Xanlar Fətiyev, Məlahət İbrahimqızı, Mirkazım Kazımov, Səttar Möhbalıyev, Fazil Mustafa və Kamran Nəbizadə daxildir.

Milli Məclis yanında Toponomiya Komissiyasının tərkibi də müəyyənləşdirildi. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun Xəritəçəkmə və coğrafi adlar şöbəsinin aparıcı elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru Mahirə Abbasova, Milli Məclis Aparatı rəhbərinin xidmətinin Ərazi vahidlərinin və bələdiyyələrin dövlət reyestri sektorunun müdiri İdrak Qarayev, AMEA-nın Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov, AMEA-ın Nəsimi adına Dilçilik İnstitutunun Onomastika şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Qara Məşədiyev, AMEA-nın vitse-ptrezidenti, Tarix Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, deputatlardan isə Nizami Cəfərov, İsa Həbibbəyli, Fəzail İbrahimli, Musa Qasımlı, Yaqub Mahmudov komissiya üzvü seçildi. Komissiyanın işinin təşkili isə Milli Məclis Aparatının dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinə tapşırılıb.

**Spiker O.Əsədov bildirdi ki, parlamentin növbəti iclası 4 dekabrda keçiriləcək.**

❑ **Elşad PAŞASOY**

# MTN-in sabiq generalının daha bir qanunsuzluğu üzə çıxdı

## Aslan İsmayılov: "General Sübahir Qurbanov Zabil Salmanovu həmin ərizəni yazmağa məcbur edənlərin başında olub"







**5 ay əvvəl Dövlət Bayrağı Meydanı İdarəsinin rəisi Rəşad Məmmədov həbs olundu. Belə məlumatlar vardı ki, idarə rəisi Bakı sakini Zabil Salmanovun ifadəsi əsasında həbs olunub. İndi məlum olur ki, Z.Salmanov ondan 5 ay əvvəl alınan ifadədən imtina edib. O, imtinasını ifadənin ondan zorla alınması ilə izah edib.**

**Z.Salmanovun nümayəndəsi, tanınmış hüquqşünas Aslan İsmayılov** "Yeni Müsavat"a açıqlamasında yayılan məlumatı təsdiqləyib. Deyib ki, Zabil Salmanov ərizəsini Rəşad Məmmədovla bağlı hissədə geri götürüb: "Rəşad Məmmədovun heç bir günahı yoxdur. Zabil Salmanovu MTN-ə aparıb gecələrlə saxlayıb, başına oyun açmaqla məcbur ediblər ki, Rəşad Məmmədovun əleyhinə ifadə versin. Ona görə də Eldar Mahmudov vəzifədən azad edilən kimi Zabil Salmanov baş prokurora müraciət etdi ki, məni MTN-in generalları, polkovnikləri zor tətbiq etməklə Rəşad Məmmədovun əleyhinə ifadə alıblar. Zabil Salmanov bildi ki, Rəşad Məmmədovu yalnız onun ifadəsinə əsasən 5 aydan artıq həbsdə saxlayırlar. Zabil Salmanov bir neçə dəfə hüquq-mühafizə orqanlarının rəhbərlərinə müraciət etdi ki, ifadəmə görə 4 uşaq atası günahsız olaraq həbsdə yatır. Yazdı ki, həmin ifadəni məndən zorla alıblar, həmin ifadədən imtina edir və Rəşad Məmmədovun dərhal azad olunmasını istəyir".

**Tanınmış hüquqşünas deyir ki, Zabil Salmanovun problemi həbsdə olan İsfəndiyar İsfəndiyarovla olub:** "Bizim mövqeyimiz belə idi ki, İsfəndiyar İsfəndiyarovla bağlı danışmayaq. Çünki o həbsdədir. Lakin onun vəkili dəfələrlə bizə qarşı qərəzli məlumatlar yayıb. Sadəcə, İsfəndiyar İsfəndiyarovun həbsdə olmasını nəzərə alıb onun barəsində danışmadıq. Vəkilin bizə qarşı qərəzinə görə bildiririk ki, bu adam illərdir ki, özünü Azər kimi təqdim etməklə bir çoxlarının haqqında qanunsuzluqlar edib. Ancaq o həbs edildəndən sonra bilindi ki, onun adı Azər yox, İsfəndiyardır. Əgər vəkil öz böhtanlarına davam edərsə, biz faktları ortaya qoyacağıq. Yenə İ.İsfəndiyarovun həbsdə olmasını nəzərə alaraq səbr edirik. Bir daha deyirəm, Zabil Salmanov Rəşad Məmmədovu görməyib, onu tanımır, ondan şikayəti yoxdur. Zabil Salmanovun əmlakını alan makler Azərdir - yəni İsfəndiyar İsfəndiyarovdur".

**A.İsmayılov bildirib ki, dəfələrlə Baş Prokurorluğa, MTN rəhbərliyinə müraciət edib Rəşad Məmmədovun günahsız olduğunu bildiriblər:** "General Sübahir Qurbanov Zabil Salmanovu həmin ərizəni yazmağa məcbur edənlərin başında olub. Bu adam bu gün həbsdədir. Belə bir halda Rəşad Məmmədovun həbsdə saxlanılması qanuni deyil".

**Z.Salmanovun nümayəndəsi müvəkkilindən zorla alınan ifadənin məqsədli olduğunu dedi:** "Bildiyimə görə, Rəşad Məmmədov siyasətə, intriqalara qarışan şəxs olmayıb. İş adamı olub, imkanlı şəxs olub. Onun əmlakını əlindən almaq üçün Zabil Salmanovdan belə bir ifadə alıblar. Zabil Salmanov belə bir ifadə verməyəcəkdi, bir başqa şəxsi məcbur edib Rəşad Məmmədovun əleyhinə ifadə alacaqdılar. Zabil Salmanov dəfələrlə teleqramla müraciət edib tələb edir ki, Rəşad Məmmədovun barəsində haqsızlıq olub, onun haqqı bərpa olunsun, onu azad etsinlər. Günahsız olan 4 uşaq atası niyə həbsdə saxlanılmalıdır?"

**A.İsmayılov deyir ki, R.Məmmədovu tutanların başında dayananlar bu gün həbsdə olduğu təqdirdə onun həbsdə saxlanılması əsassızdır:** "Onun barəsində cinayət işini aparan müstəntiqlər də bilirlər ki, Rəşad Məmmədov həbsdən azad edilməlidir. Biz bir dəfə bütün Azərbaycana göstərməliyik ki, qanunsuz iş görən rəislər, prokurorlar və hakimlər cəzasız qalmırlar. Necə ki, generallar həbsə alınıb, Rəşad Məmmədovun barəsində qanunsuz cinayət işi başlayanlar da məsuliyyətdən kənarda qalmamalıdırlar. Qanunun tələbidir ki, Zabil Salmanov müraciət edirsə ki, onu zorla yalan ifadə verməyə məcbur ediblər, istintaq orqanı həmin gün Rəşad Məmmədovu azad etməli idi. Rəşad Məmmədov 5 aydır həbsdə Zabil Salmanovdan zorla alınan, alındığı andan heç bir hüquqi qüvvəsi olmayan ifadə əsasında saxlanır. Bu aylar ərzində Zabil Salmanovla Rəşad Məmmədov arasında heç bir istintaq hərəkəti -tanıtma, üzləşdirmə olmayıb. Məndə olan bilgilərə görə, Rəşad Məmmədovu həbsə alandan sonra heç dindirməyiblər də".

Qeyd edək ki, Dövlət Bayrağı Meydanı İdarəsinin keçmiş rəisi R.Məmmədov bu ilin may ayının 12-də həbs edilib. Səbayel Rayon Məhkəməsinin qərarı ilə onun barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti sonradan uzadılıb. Ona Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanıb. R.Məmmədov hazırda MTN-in İstintaq Təcridxanasında saxlanılır.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Partiyalar Pənah Hüseynin qohumlarının işindən narahatdır

**Azərbaycandakı bir qrup siyasi partiya Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin yaxın qohumlarının cinayət təqibi ilə bağlı narahatlıq ifadə edib. Bu barədə musavat.com-a verilən məlumatda deyilir ki, KXCP, Böyük Azərbaycan Partiyası, Azadlıq Partiyası, Vətəndaş və İnkişaf Partiyası, Aydınlar Partiyası Pənah Hüseynin yaxın qohumları ilə bağlı məsələnin ədalətli şəkildə, hüquq müstəvisində həll edilməsini ələqədar orqanlardan xahiş ediblər.**

Qeyd edək ki, Sabirabad rayonunda Pənah Hüseynin qardaşına, qardaşı oğluna və 5 əmisi oğluna cinayət işi açılıb. Məhkəmə istintaqı başlayıb.

❑ **E.SEYİDAĞA**

Yeni Müsavat
N 268 (6296) 2 dekabr 2015

## Hakimiyyət qətiyyətli addımlara başladı

# İqtidar Nardaranı dalandan çıxarır - "xilas əməliyyatı"

### Hüquq-mühafizə orqanları qəsəbəyə nəzarəti ələ aldı; Azərbaycan hakimiyyəti yaxşı anlayır ki, indi Nardaranla bağlı məkrli planlar quran xarici və daxili qüvvələrə yerini göstərməyin tam zamanıdır; İran niyə narahatdır-bir gündə üç bəyanat...

**Dekabrın 1-də səhər hüquq-mühafizə orqanları dövlət başçısı İlham Əliyevin nəzarəti altında Nardaran qəsəbəsində xüsusi əməliyyata başlayıb. Xatırladaq ki, Nardaranda ötən həftə dövlət qeydiyyatında olmayan "Müsəlman Birliyi" Hərəkatının rəhbəri Tale Bağırzadənin və tərəfdarlarının həbsi zamanı 4 kənd sakininin və 2 polis əməkdaşının öldürülməsindən sonra qəsəbədə vəziyyət gərginləşmişdi.**




Bir qrup isə rəsmi xəbərdarlıqlara baxmayaraq, qəsəbənin giriş və çıxışlarında barrikadalar quraraq hüquq-mühafizə orqanlarının tələblərinə tabe olmurdu. Amma noyabrın 29-da Nardaranda barrikadalar söküldü, qəsəbə camaatı baş meydanlarını boşaltdı.

### Əməliyyatla bağlı rəsmi xəbərdarlıq: "Qanun çərçivəsində dərhal ən ciddi tədbirlər görüləcəkdir"

Daxili İşlər, Milli Təhlükəsizlik nazirlikləri və Baş Prokurorluğun dekabrın 1-də səhər birgə yaydığı məlumatda bildirilir ki, qəsəbədə gərginliyin saxlanılmasına edilən cəhdlər sakinlərin bir qismində, həmçinin ölkənin bütün vətəndaşlarında narazılıq, narahatlıq doğurur və onlar dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə yönələn hüquqazidd əməllərin qarşısının alınmasını, qanunçuluğun, sabitliyin və ictimai qaydanın bərpa edilməsini, dövlət və bələdiyyə orqanlarının normal işinin təmin olunmasını, silahlı cinayətkar qruplaşmalara qarşı qətiyyətli tədbirlərin görülməsini tələb edirlər. "Göstərilənlər nəzərə alınaraq, vətəndaşlarımızın hüquqlarının, azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, əllərdə qanunsuz saxlanılan odlu silahların, partlayıcı maddə və qurğuların yığılması məqsədilə 2015-ci il dekabr ayının 1-də saat 8.00-da qəsəbədə xüsusi əməliyyat keçirilməsinə başlanılmışdır. Müvafiq plana uyğun olaraq Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və nizami polis hissələrinin məhdud sayda xüsusi texnikası, şəxsi heyəti qəsəbəyə daxil olub, müəyyən edilmiş yerlərdə postlar qoyulub və hazırda xüsusi əməliyyat zonasında Baş Prokurorluğun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin istintaq-əməliyyat qrupu fəaliyyət göstərir" deyə, məlumatda bildirilib.

Rəsmilər xəbərdarlıq edib ki, xüsusi əməliyyatı həyata keçirən qüvvələrə müqavimət göstərən, silahlı və ya silah qismində əşyalarla hücum edən, ictimai qaydanı kobud surətdə pozan hərəkətlərə yol verən şəxslər haqqında qanun çərçivəsində dərhal ən ciddi tədbirlər görüləcək.

Bundan sonra Daxili Qoşunların (DQ) xüsusi təyinatlılarının yeridilməsi barədə xəbərlər yayılıb. DQ arasında qadın polislərin olduğu da bildirilirdi.

**Nardaran Ağsaqqallar Şurasının sədri Məşədi Natiq Kərimov musavat.com-a deyib ki, qəsəbədən çıxış yasaqlanıb:** "Kənddə Daxili Qoşunların, həmçinin Daxili İşlər Nazirliyinin əməkdaşları, polislər var. Heç evdən çıxmağa icazə verilmir. Kənarla əlaqəmiz yoxdu, telefonlar işləmir". **N.Kərimov bildirib ki, gün ərzində evlərdə yoxlama aparılır:** "Siyahı ilə evlərdə axtarış aparırlar. Yəqin ki, axtarışda olanlar var". O, əməliyyat keçirilən zaman heç bir qarşıdurmanın olmadığını deyib. N.Kərimov əlavə edib ki, istəyən kənd sakini evdən çıxıb mağazaya gedə bilir.

Tez bir zamanda DQ "İmam Hüseyn meydanı" və qəsəbənin küçələrini nəzarət altına alıb. Qəsəbədə hər hansı videoçəkilişlər aparmaq qadağan edilib. Daxili işlər nazirinin müavini, general-leytenant Vilayət Eyvazov Nardaran qəsəbəsinə gəlib, burada keçirilən əməliyyatın nəticələri ilə maraqlanıb.

### Nardaranda polislə atışmada ölənlər dəfn edildi

Nardaranda hadisələri zamanı ölənlərdən üç nəfər dekabrın 1-də günorta radələrində qəsəbə qəbiristanlığında dəfn olunub. Dəfn olunanlar Nardaran qeydiyyatında olan Əkbər Babayev, Fərahim Bünyatov və Rəfael Bünyatovdur. Dəfn zamanı heç bir planlaşdırılmamış aksiya və gərginlik olmadığı deyilir.

### İran niyə narahatdır?

**İranın Azərbaycandakı səfirliyi Nardaran hadisələri ilə bağlı bəyanatla çıxış edib. Bəyanatda İranın Nardaranda baş verən hadisələrlə heç bir əlaqəsinin olmaması bildirilir. Bəyanatda vurğulanır ki, İran heç vaxt Azərbaycanın daxili işlərinə qarışmaq məqsədi güdməyib və Nardaran hadisələrinin baş verməsində də heç bir rolu olmayıb:** "İran daim dost ölkələrdə sabitliyin və əmin-amanlığın bərqərar olunmasını istəyib və prinsipial bir siyasət olaraq problemlərin və ixtilafların zorakı yollarla həllinə qarşı olmuşdur".

"Azərbaycanın daxilində baş verən hər bir hadisə bu dövlətə aiddir". APA-nın İran bürosunun məlumatına görə, bunu İranın parlament sədri Əli Laricani Nardaranda baş verən hadisələrə münasibət bildirərkən deyib.

**Laricani deyib ki, Nardaranda baş verən hadisələr barədə eşidib:** "Bu, Azərbaycanın daxili işidir. Çox təəssüf ki, bəzi media orqanları bu məsələdə iki ölkə arasında gərginlik yaratmaq istəyirlər".

**Maraqlıdır ki, bu bəyanatdan sonra İran parlamentinin Təhlükəsizlik və Xarici Siyasət Komissiyası sədrinin müavini Mənsur Həqiqətpurun da açıqlaması yayılıb. Virtualaz.org saytı İran hakimiyyətinə bağlı iran.ru agentliyinə istinadən M.Həqiqətpurun Nardaranda baş verənlərlə bağlı dediklərindən bu sitatı gətirib:** "Azərbaycanın hakimiyyət orqanları regiondakı diktatorların aqibətindən ibrət dərsi almalıdır".

### Nardaranı necə xilas etməli?

Nardaranda 2000, 2002 və 2006-cı illərdə də mərkəzi hakimiyyətlə ciddi qarşıdurmalar baş vermişdi. Xüsusilə 2002-ci ilin iyununda polislə kənd camaatı arasında baş verən qarşıdurmada hüquq-mühafizə orqanının 2 əməkdaşı həlak olmuşdu. Qəsəbə o zaman mərkəzi hakimiyyətdən faktiki "ayrıldı", kənd əhalisi sahə müvəkkilinin belə səlahiyyətlərini tanımadı, ölkədə həm yerli özünüidarəetmə orqanlarına, həm də parlamentə keçirilən seçkiləri əsasən boykot etdi, kommunal ödənişləri dayandırdı. Ən son məlumata görə, Nardaran əhalisinin istifadə edilən elektrik enerjisinə görə dövlətə 42 milyon 267 min, təbii qaza görə isə 1 milyon 376 min manat borcu var. Bunun 387 min 330 manatı 2013-cü il, 558 min 624 manatı 2014-cü il, 450 min 363 manat isə bu ilin 10 ayı üçün olub.

Borcun yaranması səbəbləri sırasında əlbəttə ki, kənddə olan işsizliyin də ciddi rolu var. Amma bu problem təkcə Nardaranda deyil, Bakının bütün kəndləri üçün də xarakterikdir. Bu dalan vəziyyətin yaranmasında Nardaran haqda illərdir yaranmış ictimai rəyin də rolu var. Məsələn, nardaranlılar çox az-az hallarda Bakıda işləmək istəyir, eyni zamanda onların işə götürülməsində də psixoloji baryer var. Bakının digər ətraf kəndlərindən fərqli olaraq varlı təbəqə Nardaranda məskunlaşmağa, dənizkənarı ərazilərdə villalar tikib yaşamaqda maraqlı deyil, bundan hətta açıq çəkinirlər də. Elə kəndin mühafizəkar hissəsi də belə hesab edir ki, varlılar burada ev-eşik tiksələr, kəndə şəhərin "Allahın xoşuna gəlməyən" mədəniyyətini gətirəcəklər, qəsəbənin dinə bağlı əsrlərdir formalaşmış ənənəsinə xələl gələcək. Təbii ki, belə olduqda iş adamları da qəsəbədə hansısa fabrik-zavod açmaqda maraqlı olmurlar. Halbuki əgər bu cür süni baryerlər olmasaydı, onlarla kənd camaatı heç olmasa, bağ-bağatlarda ailələrinə gündəlik gəlir yeri əldə edə bilərdilər. Belə bir vəziyyətdə əlbəttə ki, nardaranlılar nə hökumətin kəndlilərə verdiyi güzəştlərdən yararlana bilirlər, hətta banklarda kredit almaqda belə çətinliklə üzləşirlər.

Tanınmış ruhani alimlərin, mədəniyyət xadimlərinin vətəni olan Nardaranda təhsilin səviyyəsi də narahatedici həddədir, bəzi valideynlər məktəbliləri təhsildən uzaqlaşdırır, onları yalnız şəriət qayda-qanunlarında və yanlış yöndə tərbiyə edir, bəzi hallarda qızların illərlə, ümumiyyətlə, Bakıda nə oxumasına, nə işləməsinə razı olmur, gənc nəsil kitabdan, ali təhsildən aralı düşür. Bu cür qapalı, həm də müasir Azərbaycan gerçəkliyi ilə ayaqlaşmayan gənc nəsil də yalnız "sinə döymək", sərt şəriət qanunları ilə yaşamaq, "cihad edib cənnətə düşmək" kimi yanlış təsəvvürlərin əsirinə çevrilirlər.

Nardaranda ölkənin digər bölgələrində olduğu kimi, dini gələnəklərə bağlılığı qadağan edən yoxdur, məscidlər, müqəddəs ocaqlar daima dini kəsimin üzünə açıqdır. Amma Nardaran Qafqaz Müsəlmanları İdarəsini, onların təyin etdiyi axundları qəbul etmir, Dini İşlər üzrə Dövlət Komitəsi ilə əlaqə saxlamırlar. Nardaranda İran üləmalarını tanıyır, onların nəzəriyyələrini qəbul edirlər. Bəzən qəsəbə sakinləri hətta ölkəmizin nazirlərinin, elm adamlarının adını bilmədiyi halda, uzaq ölkələrdəki din xadimlərinin bütün həyatını incəliklərinə kimi öyrənirlər, onlardan iqtibaslar gətirirlər.

**Dini komitənin sədri Mübariz Qurbanlı bugünlərdə bildirib ki, Nardaranda məscidlər hələ də qeydiyyatdan keçməyib:** "Məscidlərin qeydiyyat üçün sənədləri hazırlanmalı, bu məscidlərin ətrafında dini icmalar yaradılmalı, həmin məscidlər rəsmi şəkildə fəaliyyət göstərməlidir. Dövlət qeydiyyatına alındıqdan sonra o məscidlərə QMİ-nin təyinatı ilə axundlar göndərilməlidir. Bundan sonra həmin məscidlərdə dini mərasimlər keçirilməsi tam qanunauyğun olmalıdır. Çox təəssüf ki, indiyə qədər Nardaranda həmin məscidlərin qeydiyyatı, dini icmaların yaradılması ilə bağlı çağırışlarımıza, təşəbbüslərimizə adekvat cavablar verilməyib".

QMİ və Dini Komitə ilə əməkdaşlıq edilməməsi Nardaranda müqəddəs ziyarətgahların təmirini də çətinləşdirir. Təkcə Nardarana deyil, Azərbaycanın nadir tarixi-dini abidələri dövlət qayğısından kənarda qalır.

Şeyxin də, hökumətin də dini siyasətini qəbul etməmək olar. Həm Şeyxin, həm də iqtidarın dini siyasət baxımından yanlışları var. Amma bunu "sizi yox, filan ölkənin mollasını tanıyırıq", "Azərbaycanın qanunlarını yox, İran mollalarının qaydaları ilə yaşayacağıq", "biz polisə tabe olmuruq", "işıq pulu vermirik" kimi tələblərlə qəsəbənin yollarını bağlamaq nə mübarizədir, nə problemlərdən çıxış yolu. Əlbəttə, nardaranlıların ayrıca götürülmüş statusu ola bilməz, nə dinə bağlılıq, nə sosial problemlər, nə daş-kəsək toplamaq, barrikadalar qurmaqla Azərbaycan hakimiyyəti ilə danışıq dili ola bilməz. Azərbaycan iqtidarının siyasətini bəyənməmək, hətta ona qarşı barışmaz mövqedə olmaq olar. Amma bu fəaliyyət Azərbaycan qanunlarına, konstitusiyasına uyğun olmalıdır.

**Dünya və Azərbaycan Nardaranda ilk aksiyaların başladığı 2000-ci ildən bəri çox dəyişib. İŞİD və digər terror qruplaşmaları İslam adı altında pərdələnərək dünyanın ən inkişaf etmiş ölkələrinə meydan oxuyurlar. Azərbaycan hakimiyyəti də yaxşı anlayır ki, indi Nardaranla bağlı məkrli planlar quran xarici və daxili qüvvələrə yerini göstərməyin tam zamanıdır. Nardaranı dalandan çıxarmaq lazımdır.**

❑ "Yeni Müsavat"

**Azərbaycanda müxalifət partiyaları 1990-cı illərin sonları, 2000-ci illərin əvvəllərində Qərbdən gələn hər bir bəyanata, açıqlamaya, səfərlərə həssaslıqla yanaşırdı. Demokratiyaya dəstək məsələsində Qərbə böyük ümidlər var idi. Son illərdə müxalifətin okeanın o tayına ümidləri sanki yox olub. Belə təəssürat var ki, müxalifət artıq Qərbdən əlini üzüb.**

# Müxalifət Qərbdən əlini üzüb

## “Demokratik müxalifətlə radikal müxalifət qruplarının fərqi bax budur”

Bu mövzuda söhbət etdiyimiz **ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, bu gün dünyada təhlükəsizliklə bağlı o qədər problemlər var insan hüquq və azadlıqları, demokratiya məsələlərində əməkdaşlıq ikinci plana keçir. Yaxın Şərqdə müharibə gedir, Ukraynanın bir hissəsini Rusiya işğal edib, ümumiyyətlə, dünyada çox ciddi təhlükəsizlik problemi yaşanır. Ona görə də dünyada prioritet məsələləri demokratiya və insan haqları məsələləri təşkil eləmir. Bu baxımdan müxalifət başa düşür ki, Qərb, beynəlxalq birlik qeyd olunan həmin ciddi problemlər, təhlükələr aradan qalxana qədər heç bir ölkədə demokratiyaya açıq və səmimi şəkildə dəstək verməyəcək: “Məsələnin ikinci tərəfinə gəldikdə, bizim uzun illər apardığımız siyasət yalnız Qərbin mövqeyi ilə, ümidlərimizi Qərbə bağlamaqla bağlı deyildi. Bir tərəfdən, ölkədə müxalifət güclü idi, xalq xeyli dərəcədə təşkilatlanmışdı, digər tərəfdən, Qərbin özü də demokratiyaya bu və ya başqa şəkildə dəstək verməyə cəhd edirdi. Bu faktorların hamısı bir yerdə olanda belə təəssürat yaranırdı ki, müxalifətin yeganə ümid yeri Qərbdir. Bu gün Qərb Azərbaycanda demokratik dəyişikliklər istəsə belə, hazırda Azərbaycanda demokratik dəyişikliklərin həyata keçməsində rol oynayacaq tərəf-qüvvə yoxdursa, Qərbin istəyi nəyi həll edəcək? Heç nəyi. Məsələn, fərz edək ki, Qərb indiki vəziyyətdə istəyəcək ki, Azərbaycanda bir demokratik seçki keçirilsin, əgər ortada demokratik müxalifət yoxdursa, Qərb nə qədər çalışsa da demokratik seçki keçirilməsi mümkün olmayacaq. Bizim Qərbin bəyanatlarına, addımlarına illər öncə olduğu kimi, ciddi reaksiya verməməyimiz əlimizi Qərbdən üzməklə bağlı deyil. Səbəb odur ki, artıq müxalifət kifayət qədər zəif düşüb, elə Qərbin də dolayısı ilə iştirakı ilə müxalifət ölkədə sıxışdırılıb siyasi səhnədən az qala çıxarılıb”.



Sərdar Cəlaloğlu

**ADP sədri Azərbaycanda əvvəlki illərdən fərqli olaraq hökumətin ancaq dini qruplaşmalardan danışdığını da demokratik müxalifətin siyasi sistemdən sıxışdırılmasının nəticəsi hesab edir:** “Əvvəllər demokratik qüvvələrdən danışırdılar. Efirdən ADP-ni, Müsavatı, AXCP-ni söyürdülər. Bu gün isə sanki nə Müsavat, nə AXCP, nə ADP var. İndi dini qruplaşmaları söyürlər. İllərdir aparılan siyasətin nəticəsində demokratik müxalifətin yerini radikal dini təmayüllü qüvvələr tutub. Qərbin verdiyi bəyanatlar Azərbaycanda demokratik müxalifət öndə olduqda əhəmiyyət daşıyırdı. İndiki vəziyyətdə Qərbdən verilən bəyanatlar həm də buna görə əvvəlki kimi ciddi qarşılanmır, ümid yaratmır. Nə qədər ki, demokratik müxalifət zəif durumdadır, dini radikal qüvvələr təşəbbüsü ələ alıb, Qərb ölkədə demokratiyaya nə qədər dəstək vermək istəsə belə, radikal dini müxalifət buna imkan verməyəcək”.

**S.Cəlaloğlu dedi ki, müxalifət qüvvələr nisbətini ölçüb-biçir, geopolitik vəziyyətə, beynəlxalq konyukturaya baxır:** “Görürük ki, boşuna ümidlənməyə dəyməz, Qərb hətta istəsə belə Azərbaycanda demokratiya qurulsun, indiki şərtlər daxilində ölkədə demokratikləşmə həyata keçirmək mümkün deyil. Əgər Azərbaycan müxalifəti əvvəlki gücünə qayıtmasa, itirdiyi mövqeləri yenidən bərpa eləməsə, indiki şərtlər altında Qərb də, hətta İlham Əliyev də istəsə, Azərbaycanda demokratiya olmayacaq. Demokratiyanı qurmaq üçün subyekt olmalıdır. Subyekt sıradan çıxarılıbsa, proses radikal dini müxalifətlə aparılacaq? Axı bu mümkün deyil. Ən qəribəsi budur ki, Qərb demokratik müxalifətin güclənməsi üçün hələ heç bir addım atmır. Qərbin hərdənbir verdiyi bəyanatlar, hərdən iqtidara sərt münasibət bildirməsi həm də buna görə bizi maraqlandırmır”.

**Həmsöhbətimiz vurğuladı ki, əgər Qərb Azərbaycanda demokratiya istəyirsə, birinci növbədə ölkənin daxilindəki demokratik müxalifətin güclənməsinə çalışmalıdır:** “Son hadisələr göstərdi ki, iqtidarın özünün də marağı bunu tələb edir. Vaxt var idi demokratik müxalifətin minlərlə üzvünü mitinqlərdə polis əlində dəyənək döyürdü, qovurdu. Lakin demokratik müxalifətin həmin minlərlə üzvü polisə müqavimət belə göstərmirdi. İndi 10-15 radikal dini qrup üzvünün qarşısına göndərilən polislər öldürülür, polisə atəş açılır. Demokratik müxalifətlə radikal müxalifət qruplarının fərqi bax budur. Demokratik müxalifət sıradan çıxdıqca, narazı insanlar gedib həmin o radikal qrupların sırasına qoşulur. Burda artıq Qərbə ümid-filan kimi məsələlər rol oynamır. Bu ölkənin naziri xarici ölkələrin təsiri altına düşürsə, sosial iqtisadi problemləri olan sadə vətəndaşların hansısa xarici ölkənin təsiri altına düşməsindən heyrətə gəlməməlisən. Demokratik müxalifət partiyaları efirdən məhrum edilməsəydi, siyasi sistemdən sıxışdırılmasaydı, narazı kütlə heç vaxt radikal qruplara meyllənməzdi. Demokratik müxalifət güclü olduğu zamanlarda radikal dini qrupların səsi belə çıxmırdı”.

❑ Etibar SEYİDAĞA

# Hakimiyyət Nardaran hadisələrində müxalifət izi axtaracaqmı?

**Noyabrın 26-da Nardaranda baş verən hadisələrdən bir həftə ötür. Hər keçən gün dəhşətli faciə ilə bağlı yeni-yeni məsələlər gündəmə çıxır. Ölkə iqtidarının indiyə qədər bu cür hadisələrdə yürütdüyü siyasət bəzi sualların yaranmasına səbəb olub.**

Əsas suallardan biri Nardaran hadisələrində hakimiyyətin müxalifət izi axtarıb-axtarmayacağı ilə bağlıdır. Müstəqillik illərimizə nəzərə salsaq, bu sualın dolayı yolla cavabını tapmış olarıq. Belə ki, 1994-cü il oktyabrın 4-də Gəncədə, 1995-ci ilin martında Bakıda, eləcə də 2002-ci ildə Nardaranda baş vermiş ilk hadisədə ölkə iqtidarının apardığı ənənəvi siyasətin şahidi oluruq. Hakimiyyət belə hadisələrin fonunda daim rəqiblərinin izini axtarmaqla məşğuldur. Hətta iqtidar daxilində “üsyan bayrağı açan” məmurların da arxasında müxalifətin dayanması ilə bağlı zaman-zaman iddialar səsləndirilib. Təkcə 2005-ci ilin oktyabrında baş verən “nazirlər qiyamı”nı misal göstərməyimiz kifayət edər.



**Mehman Əliyev:**
“Avropayönlü müxalifəti İslam dövlətinə bağlamaq istəyirlər...”



**Sülhəddin Əkbər:**
“Yox saydıqları düşərgənin üzərinə necə məsuliyyət ata bilərlər?”

Maraqlıdır, iqtidar noyabrın 26-dakı hadisə ilə bağlı yenə də ənənəvi kursundan istifadə edəcəkmi?

Artıq iqtidaryönlü media orqanlarında bunun işartıları görünməyə başlayıb. Hakimiyyətə yaxın qəzetlər, saytlar səhifələrində Nardaran hadisələrində səbəbkarlar qismində həbs edilən şəxslərin müxalifətə yaxın olması iddialarına geniş yer ayırmaqla, ilkin “pas”larını atırlar. Əsas olaraq da hadisə ilə bağlı həbs edilən Müsəlman Birliyi Hərəkatının rəhbəri Hacı Tale Bağırzadənin Milli Şura üzvü olmasını, həbsindən öncə müxalifətə yaxın mövqeyini göstərirlər. Müxalifətin bu olaylarla bağlı susqun mövqeyi də bir çox mətləblərdən xəbər verir. Demokratik düşərgə hadisələrə açıq münasibət sərgiləməmək taktikasından istifadə edir. Əslinə qalsa, bu müxalifətin Nardaran hadisələrinə ehtiyatlı yanaşmasının bariz nümunəsidir. Lakin AXCP və Milli Şura nümunəsində baş verən proseslərdə Hacı Taleyə və Nardaran camaatına açıq dəstək görünməkdədir.

**“Turan” informasiya agentliyinin rəhbəri Mehman Əliyev hakimiyyətin Nardaran hadisələri ilə bağlı siyasətinin başqa istiqamətdə olacağı qənaətindədir:** “Əsas xətt İslam dövlətinin yaradılması və bu siyasətin beynəlxalq rəyə hesablanması olacaq. İraq və Suriyada İslam dövləti adı altında gedən məlum təşkilatı nəzərdə tuturam. Həmin topluma qarşı terrorist, dövlət çevrilişinə cəhd kimi ittihamlar irəli sürəcəklər. Çalışacaqlar ki, prosesləri İraq və Suriyada gedən proseslərə bağlasınlar. 2002-ci ildə də bu xətt irəli sürülmüşdü. Bu xətt ənənəvidir. Müxalifətin rolu ilə bağlı vaxtaşırı fikirlər səslənir. Amma bu əsas xətt kimi qəbul olunmayacaq”.

**“Turan” rəhbəri Hacı Talenin müxalifətə yaxın olması barədə də fikirlərə münasibət bildirdi:** “Hakimiyyət burada müxalifətin adından istifadə edə bilər. Amma əsas xətt İslam dövləti, İslam radikalizmi olacaq. Çünki burada ölənlər, silah var. Avropayönlü müxalifəti İslam dövlətinə bağlamaq istəyirlər. Bu cəhdlər mediada səslənməyə başlayıb. Avropayönlü müxalifət bunu yaxşı başa düşür. Bu baxımdan hakimiyyətə əsaslar vermək, özlərinə qarşı kampaniya aparılmasını istəmirlər. Müxalifət hakimiyyətin taktikasını bilməmiş deyil”.

**Milli təhlükəsizlik nazirinin sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər də hakimiyyətin müxalifət kartından istifadə edəcəyinə inanmır. Partiya sədri fikirlərini belə əsaslandırdı:** “Hakimiyyət müxalifətin olmadığını iddia edir. Yox saydıqları düşərgənin üzərinə necə məsuliyyət ata bilərlər? Azərbaycanda elə bir rejim mövcuddur ki, istənilən şəxsi istənilən ittihamlarla həbs edə bilərlər. Amma gerçəklik başqadır. Gerçəklik ondan ibarətdir ki, ölkəmizdə demokratik quruluş bərqərar olmayana qədər, bu problemlərin həlli mümkün deyil. Nardaran spesifik xüsusiyyətləri olan kənddir. Xarici xüsusi xidmət orqanlarının nəzarətindədir. Bu kənddə zamanında lazımi işlərin aparılmaması nəticəsində bu cür proseslər orada baş verir. Nəticədə 20 ildir ki, problemlər o kənddə həll olunmur. Güc tətbiq etməklə də problemi həll etmək mümkün deyil. İlk növbədə maarifləndirmə işi aparılmalıdır. Hərtərəfli baxış lazımdır. Kəndin problemləri də həll olunmalıdır. Dinc sakinləri narazı salmaq olmaz. İndiyə qədər dəfələrlə Nardaranda əməliyyatlar aparılıb. Amma nəticəsi olmayıb. Bu gün aparılan əməliyyatların da nəticə verəcəyini düşünmürəm”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 268 (6296) 2 dekabr 2015

# Yeni deputat Rəsulzadəni vətən xaini adlandırdı

## YAP-ın Gəncə təşkilatının sədri Şərqdə ilk cümhuriyyətin banisini təhqir edən ifadələr işlədib; təkzibə “Yeni Müsavat”ın cavabı: “Faktın həqiqiliyini məhkəmədə sübut edə biləcək dəlillərə malikik”

**Bu günlərdə jurnalist həmkarlarımızla birgə layihə çərçivəsində Gəncə şəhərində olduq. Səfərimiz zamanı məclislərin birində Gəncədən yenicə deputat seçilən 32 yaşlı Naqif Həmzəyevlə görüşümüz oldu. Gənc deputat Gəncədə aparılan quruculuq işlərindən, işsizliklə bağlı görülən və görüləcək layihələrdən ağız dolusu danışdı. Daha sonra isə üzünü media nümayəndələrinə tutub- “mənə suallarınızı verə bilərsiniz, mən jurnalistlərin, gənclərin dostuyam” dedi.**



**Elə bu an uzun müddətdir ki, narahatlıq doğuran, mətbuatda tez-tez müzakirə edilən bir məsələ ilə bağlı sual ünvanladım:** “Rəsulzadənin büstünə torba keçirilməsi ilə bağlı son durum haqda nə deyərdiz?”

Sualımdan diksinən deputat bir qədər də üz-gözünü turşudub, Azərbaycan Cumhuriyyətinin banisi, “Bir kərə yüksələn bayraq, bir daha enməz” şüarının müəllifi Məhəmməd Əmin Rəsulzadəyə olan nifrətini izhar etdi. Jurnalistlərin gözü önündə bu cür dialoqumuz oldu:

- Niyə Rəsulzadının büstü və ya heykəli qoyulmalıdır ki?! Mən bu cür tarixi şəxsiyyət tanımıram, mənim üçün bircə lider var, o da ümummilli lider. Gəncəli gənclər də mənim bu fikrimlə razıdırlar.

***- Şərqdə ilk demokratik...***

-Tarixi məndən yaxşı biləcəksiz? Heç bilirsiz o Rəsulzadə respublika yaratmaq üçün nələr edib? Yaxşı şəxsiyyət olsaydı qurduğu respublikanı qoruyub saxlayardı.

**Bu zaman kənardan da müdaxilələr olur:**

- Rəsulzadə yaxşı kişi olsaydı, arvadına sahib çıxardı...O, bizim nə qədər sərvətimizi talayıb... Bunlar *(mən nəzərdə tuturam)* Rəsulzadə fanatıdırlar.

**Deputat canfəşanlıqla Rəzulzadəyə qara yaxmaqda, jurnalistləri şoka salaraq, ağlına gələni söyləməkdə davam edirdi:**

- Rəsulzadə satqın olub, o bizim İrəvanı və digər torpaqlarımızı satıb. Azərbaycana qarşı xarici qüvvələrlə sıx əlaqədə olub. Onun barəsində dəqiq məlumat bilmək üçün tarixçilərə müraciət edin. Onlar kimin nə olduğunu yaxşı bilir. Bir də ki, cumhuriyyətin qurulmasında təkcə Rəsulzadə deyil, başqalarının da xidmətləri olub. Siz niyə onlar barəsində sual vermirsiz? Cümhuriyyət məgər təkcə Rəsulzadədən ibarətdir?!

Hazırda Gəncədə Nizami Gəncəvinin və digər tarixi şəxsiyyətlərimizin həyat və yaradıcılığı ilə bağlı işlər görülür, onlara aid abidələr qoyulur. Cümhuriyyətin ildönümü ilə əlaqədar şəhərimizin Gülüstan qəsəbəsində “İstiqlal” parkı açılıb.

***- Gələn qonaqlara, xarici turistlərə parkı necə təqdim edirsiz- satqın Rəzulzadənin qurduğu istiqlaliyyətə aid “İstiqlal” parkı?***

- Axı niyə fikirləşirsiz ki, Gəncədə Rəsulzadənin heykəli olmalıdır?! Rəsulzadə respublikanı Gəncədə deyil, Tiflisdə qurub... Qoy bu barədə Müsavat Partiyasının üzvləri məşğul olub, onunla bağlı məsələləri həll etsinlər. Bir dəfə də olsun müsavatçılardan kimsə onun büstünün qoyulduğu quruma zəng edib başına torba keçirilməsinin səbəbini soruşub?...Siz 28 May günü Gəncəyə gəlsəniz görərsiz ki, biz necə bayram keçiririk. Hətta on yerə əklil qoyuruq.

***- Məsələn, hara?***

- Gəlib öz gözlərinizlə görə bilərsiz hara.

**Dialoqun bu yerində jurnalist həkarlarımdan biri dözməyərək atmaca atır:**

***- Gəlin birlikdə Rəsulzadəni vətən xaini elan edək və beləcə də məsələyə son qoyulsun...***

Mətbuatda yayılan məlumatlara görə, Naqif Həmzəyevə zamanında Azərbaycan hakimiyyətinə qarşı sərt mövqe tutanlardan biri olub. Çox qəribədir ki, bundan öncə YAP-ı söyən Naqif Həmzəyevin sonradan elə həmin partiya tərəfindən namizədliyi irəli sürülüb və hazırda YAP-ın Gəncə şəhər təşkilatının sədridir. Bu müəmmalar çoxlarına məlumdur. Lakin bir sual yəqin ki, çoxlarını düşündürür- Rəsulzadə niyə bir çox məmurları qorxudur, ona qarşı bu cür kinin məğzi nədir?

### Təkzib gəldi, amma...

“ Naqif Həmzəyevin Məhəmməd Əmin Rəsulzadəni guya təhqir etməsi və onun barəsində aşağılayıcı fikirlər söyləməsi barədə musavat.com saytında yayımlanmış materialda jurnalistika prinsiplərinə zidd olan ciddi təhriflərə yol verilib. Məqalənin müəllifi Xalidə Gəray bizim layihəmiz çərçivəsində jurnalistlərin Gəncə səfərində iştirak edib və onunla millət vəkili Naqif Həmzəyev arasında sözügedən məsələ barədə həqiqətən də dialoq olub. Lakin Xalidə Gəray söhbəti tamamilə təhrif edərək, millət vəkilinin işlətmədiyi ifadələri onun adına yazıb və bununla da ictimaiyyətdə çaşqınlıq yaradacaq davranışa yol verib”.

Bunu bir qrup jurnalistin Gəncəyə səfərini təşkil etmiş “İslahatçı Gənclər” İctimai Birliyinin sədri Vüsalə Hüseynli musavat.com-a yolladığı məktubunda yazır. O qeyd edir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyələşdirdiyi “Səfir olsaydım, Azərbaycan necə təmsil edərdim” adlı layihə üzrə Gəncədə keçirilmiş tədbirdə “Yeni Müsavat” qəzetinin əməkdaşı ilə Naqif Həmzəyev arasında musavat.com-da təqdim olunmuş şəkildə hər hansı dialoq olmayıb: “Məqalə həmin dialoqun ruhuna tamamilə ziddir. Orada xanım jurnalistin təqdim etdiyi kimi, təhqiredici ifadələrdən istifadə olunmayıb. Müəllif həmin söhbəti təhrif edib və millət vəkilinə qarşı açıq qərəz nümayiş etdirib. Təəssüf edirəm ki, yüksək mədəniyyətlə qarşılanmış jurnalist xanım ucuz sensasiya xatirinə belə bir davranışa yol verib”.

### “Yeni Müsavat” dan cavab

**Redaksiyadan:** “Hörmətli Vüsalə xanımın mövqeyini, yazısındakı bütün qüsurları, kasad azərbaycancasını redaktə və islah edərək, dərc etməklə bərabər, onun bizə jurnalistika dərsi keçməsini də anlayışla qarşılayırıq. Futbolçuların və jurnalistlərin taleyi belədir: hamı kənardan ”topu" necə vurmağı qışqırır, bəzən söyür; lakin təbii ki, onların özlərinin topu, klaviaturanı işlətməsi qətiyyən peşəkar deyil. Redaksiya bəyan edir ki, müxbirin təqdim etdiyi yazı yoxlanıb, onun həqiqiliyini məhkəmədə sübut edə biləcək dəlillərə malikik, yazdıqlarımızın arxasındayıq, bunun əksini iddia edib, bizi yalanda suçlayanlar özləri yalançıdırlar. Bir məmura, hər hansı bir layihəyə görə milli dəyərlərdən, Azərbaycanda dövlət quran kişilərin təhqir olunmasından vicdansızcasına keçənlər, buna susanlar üstümüzə gəlsələr, peşman olacaqlar".

❑ **Xalidə GƏRAY**

# Naqifin naqisliyi



**Xalid KAZIMLI**

**Baxırsan, bir damcı uşaqdır, amma özündən, yaşından, ranqından böyük-böyük sözlər danışır.**

Əslində deputata “bir damcı uşaq” demək təbiri-caiz deyil, amma o gənci nə Gəncə xalqı özünə deputat seçib, nə də onun özü deputat olmağa layiqdir.

İllərdən bəri hakimiyyətə yarınan, bir çox xırda-para işlərə yarayan bu gənci, sovet dövrünün ibarəsi ilə desək, “qabağa çəkiblər”, cibinə mandat qoyublar, o da özünü mühüm bir şəxsiyyət saymağa başlayıb.

Söhbət YAP-ın Gəncə şəhər gənclər təşkilatının sədri Naqif Həmzəyevdən və onun dövlətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadəyə qarşı göstərdiyi sayğısızlıqdan, onun barəsində danışdığı yaman-yaman sözlərdən gedir.

Adamın ritorikası mürtəcedir, hiss olunur ki, o, bu dildə danışmağı indiyəcən kulisində dolaşdığı dairələrdə öyrənib. Özündən böyüklər riyakarlığı bacararaq çox zaman nəyi harada deməyi bilsələr də, gənc Həmzəyev elə bilir ki, hər yerdə, o cümlədən jurnalistlərin qarşısında bu cür danışa bilər.

Ən paradoksalı odur ki, gənc deputat sinəsində, pencəyinin nişan-medal üçün xüsusi olaraq dəlinmiş yaxalığında böyük öndər Rəsulzadənin qaldırdığı bayrağın əksi olan nişanı daşıyır, oturduğu bütün kabinetlərdə o bayrağın altında oturur, qatıldığı mərasimlərdə Rəsulzadənin qəbul etdiyi dövlət himnini dinləyir və gəlib dilinə belə ifadələr gətirir.

Rəsulzadə və silahdaşları onun yaşında olanda müstəqil dövlət qurmaq, yoxdan bir bayraq ucaltmaq istəyirdi, indi bu hazırına nazir olmuş birisi onların tarixi xidmətini yerdən-yerə vurur.

Görünür, Həmzəyev 3-4 il öncənin siyasi konyukturasına qapılıb, xəbəri yoxdur ki, hakimiyyətin Rəsulzadəyə münasibəti bir qədər dəyişib, yumşalıb.

Ən azı iki il öncə Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı verilib, Mədəniyyət və Turizm Nazirliyi AMEA, Təhsil Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirib.

Həmzəyev isə bu sərəncamdan gerilərdədir, elə bilir ki, onun bu ritorikası mandat verənlərə xoş gələcək.

Əslində isə o, bizə müstəqil dövlət bəxş edən insanların liderini satqın, xain adlandırmaqla təkcə dövlətçiliyimizə qarşı çıxmır, eyni zamanda böyük öndərə hörmət ifadə edən dövlət başçısının iradəsinə qarşı gedir. Xüsusilə mərhum prezident Heydər Əliyevin Rəsulzadə haqqında dəyərli və müsbət fikirləri sosial şəbəkədə yayılandan sonra, bir çox məmurları Naqifin hansı dərəcədə naqis iş gördüyünü anlayar.

Bu tip mənsəbpərəst adamlar çox qorxuludur, siyasi vəziyyətin, hakimiyyətin dəyişəcəyi təqdirdə öz düşərgəsini ilk tərk edən, köhnə silahdaşlarına arxa çevirən, onları satan, üzlərinə duran məhz belələri olur. Sovetin partbiletini də ilk atan belə karyeristlər olmuşdu.

Hələ onun ətrafındakı gənc yalakaların söhbətinə baxın. Komanda aldıqlarında qarğa-quzğun toplusu kimi ağız-ağıza verirlər. Bu cür gənclər mənsəb və sərvət üçün hər şeyə hazırdırlar, məkrli məqsədlərinə çatmaq üçün hər şeyi satarlar.

Bu cür insanların hücumuna görə durub Rəsulzadəni müdafiə etməyə ehtiyac yoxdur. Onlardan daha elmli, daha yaşlı, daha ranqlı adamlar bir zamanlar dövlətimizin banisinə hücum ediblər və layiqli cavablarını alıb susublar.

Rəsulzadə haqqında isə onu demək olar ki, o, heç də bu xalqın sərvətinə əl uzatmayıb, hər zaman dürüst insan olub. Hətta SSRİ-dən Finlandiyaya mühacirət edərkən dövlətin ona verdiyi ezamiyyət pulunu da aparıb qəpiyinə qədər sovet səfirliyinə təhvil verib.

Heç kəs unutmasın, dünyanın aparıcı dövlətlərinin liderlərinin cəmi 5-10 il öncə prioritet sayaraq elan etdikləri “İnsanlara hürriyət, millətlərə istiqlal” devizini Rəsulzadə 97 il öncə səsləndirib. Bu şüar dünyada hələ indi-indi aktuallaşır. Söhbət zəmanəsini 100 il qabaqlayan bir demokrat liderdən gedir.

Bir detal da var və bu Naqif Həmzəyevə, eləcə də onun ətrafındakı yaltaq gənclərə çox aiddir. 30-cu illərin ortalarında Qara dəniz sahillərində böyük bir komsomol tədbirində iştirak edən Stalin azərbaycanlı gənclərə yaxınlaşır. Azərbaycan gənclərinin lideri dahi rəhbərə yaltaqlanmaq üçün əks-inqilabi qüvvələrə qarşı apardıqları amansız mübarizədən bəhs edir, arada Rəsulzadənin də qarasına danışır. Stalin vaxtilə ona yaxşılığı keçmiş adamın qarasınca bu cür həyasız-həyasız danışan gəncin sözünü kəsir və deyir: “Tanımadığın adamın haqqında belə danışma”.

İndi onun sözü olmasın, Naqif Həmzəyev, tanımadığın adamın haqqında belə danışma. Çıxışının əvvəlində elə bir tarixi şəxsiyyəti tanımadığını demisən, bu sözü siyasi mənada işlətmisən, amma görünür ki, sən Rəsulzadəni gerçəkdən də tanımırsan.

YENİ MÜSAVAT
N 268 (6296) 2 dekabr 2015



# Qatıq bankası kimi internet

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud "qabı geri alınmır"

**Əli müəllim heç olmazsa poçt idarələrində qabyuyan, sabun-zad satdırıb rabitə sistemini birtəhər idarə edirdi. İndi nə sirdirsə, o, nazir vəzifəsindən atılandan bəri bizim internetimiz lap itin gününə düşübdür. Prinsipcə, itin günü bir az yanlış alınır, çünki Amundsen itə minib Cənub qütbünü kəşf eləmişdi. Bizim internetin sürəti ilə heç Biləcərini kəşf eləmək mümkün deyil.**

Bir maraqlı müşahidəmi də bölüşüm: paytaxt internetini monopoliya şəklində ələ alan "Bakinternet"in problemləri Əli müəllim vurulmazdan bir həftə öncə başlamışdı. Açığı, uzun illərin internet müştərisi olaraq ilk dəfə belə bir hal görürdüm: həm kompüterin, həm modemin bütün siqnal işıqları, texniki parametrləri internetin var olduğunu göstərirdi, ancaq internet yox idi! Bir növ, içiboş internet idi. Hal-hazırda da eyni problem qayıdıb gəlmişdir. Görəsən yapistlər içiboş internetlə nə mesaj vermək istəyirlər? Bütün iqtisadi inkişafımızın, analoqu olmayan dirçəlişin, demokratik islahatların və sairənin boş sözlərdən ibarət olduğunu biz bilirdik, indi eyni hal internetə də tətbiq edilirmi? Maraqlı prosesdir. Axı iqtidar nümayəndələri Azərbaycanda internet azadlığından, azı 70 faiz camaatın internetə çıxış imkanlarından dəm vurmağı sevirlər. Belə çıxır indən belə internetin də quruca şəklini bizə göstərəcəklər. İnternet ruhlar, cinlər kimi bir şey olacaqdır. Bill Qeytsin anası ölsün... Stiv Cobsa isə rəhmət diləyərdim, amma nə xeyri var?

Ölkəyə internet "idxal edən" başqa monopolistin - "Delta" şirkətinin açıqlamaları da maraqlıdır. Örnək üçün, deyirlər keçmiş MTN şefi Eldar Mahmudov şirkətin serverlərində xüsusi dinləmə avadanlığı quraşdırıbmış. Orda iş adamları, dükançılar arasında söhbətlərə qulaq asır, sonra şantaj edib pul alırmışlar. Kim bilir, bəlkə də bizim internet həmin dükançıların qarğışına, bəd duasına tuş gəlmişdir? "Görüm sənin internetin meqabaytsız qalsın", "Allah serverini dağıtsın", "Fiberoptik naqilin yansın" və sairə - bunlar bizim milli elmi nailiyyətlərimizdir. Akademiklərimiz dəm qazından boğulursa, cahillərimiz asqıranda iflic olmalıdır.

Söz vaxtına çəkər, elə indicə dostum Etibar bəy zəng vurub deyir: "YAP Siyasi Şurasının siyahısı var internetdə, orda Əli Abbasovun adının qabağından "müvəqqəti işsiz" yazıblar, bir ona bax". Necə baxım, hələ onu düşünürəm. Ancaq yapistlərin çox nikbin olduğunu da qeyd etməliyəm. Görəsən Əli müəllim hardan bilir ki, bu işsizliyi müvəqqətidir? Bəlkə ona heç bir iş verilməyəcək? Bəlkə onu, dilim-ağzım qurusun, poçt qutusuna döndərib şəhər darvazalarından asacaqlar?

Bu yaxınlarda dükandan Ukrayna konfeti almışam, gəlirəm evə, çay içəndə baxıram ki, bu, nəsə ayrı cür dad verir. Konfetin kağızına diqqət elədim. Gördüm burda klassik saxtakarlıq üsulu - brendin oğurlanması baş veribdir. "Trufalye" adını "Trufalino"ya çeviriblər, qalan hər şey - kağızın rəngi və sairə Ukrayna məhsulunu təkrar edir. Sən demə, bunu Azərbaycanın "Veysəloğlu" şirkəti Rusiyanın Perm şəhərində düzəldib gətirir. *(Bu özü də şübhəlidir)*. Çinin "Adidas"ı "Adibas", "Panasonic"i "Panasonig" adıyla buraxması tipində bir saxtakarlıq üsuludur. Mən bu saxtakarlıq haqda sosial şəbəkədə yazdım, şirkətin ekspeditorlarının təşkil edilmiş hücumuna məruz qaldım. "Oğru elə bağırdı" üslubunda elə qışqırırdılar ki, sanki saxta konfeti Ukrayna şirkəti buraxıb. "Lays" çipsini saxtalaşdıran və "Liss" çipsi qayıran "Arzuna" firmasının bir yekə qardaşı da bu "Veysəloğlu" imiş. Normal hüquqi dövlət, qanunların işlədiyi ərazi olsaydı, bunlar belə işlər görə bilərdimi? Qətiyyən. İndiki halda dövlət səviyyəsində cinayətkarlara himayədarlıq edilməsi saxtakarları ruhlandırır.

Oğurluğun ömrü adətən qırx gün çəkirdi, ancaq bizim diyar uzunömürlülər diyarı sayıldığından bizdə bir az uzun alındı.

---



# Dünyadakı itkilərdən qazanan "supergüc" - ABŞ

## Politoloq Fərhad Mehdiyev: "Amerika sənayesi müharibəyə əsaslanır"

**Neçə illərdir dünyanın siyasi və hərbi müstəvisindəki sabitlik tamamilə pozulub. Bir zamanlar Yaxın Şərqdə partlayan bombaların səsi artıq Avropadan gəlir. İctimaiyyətdə hətta üçüncü dünya müharibəsinin başlayacağı ilə bağlı fikirlər də dolaşır. Baş verənləri kənardan izləyən, ərazisində güllə atılmayan, proseslərdən qazanan bir dövlət var -Amerika Birləşmiş Ştatları.**

Siyasətşünaslar bildirirlər ki, dünyadakı proseslər, sadəcə, böyük güclərin öz aralarında apardıqları "nüfuz savaşı"dır. Ekspertlərin fikrincə, ABŞ birinci və ikinci dünya müharibələrində olduğu kimi, bu savaşlardan da faydalanır və "supergüc" statusunu qoruyur.

Yerli və xarici ekspertlərin sözlərinə görə, Avrasiyaya kənardan nəzarəti demək olar ki, əlində saxlayan ABŞ-ın xarici siyasətinin müəyyənləşməsində faktiki ümumdünya valyutası rolunu oynayan dollar da mühüm əhəmiyyət kəsb edir. Dünyada neft alış-verişinin dollarla həyata keçirilməsi Amerikanın mövqeyini daha da gücləndirir.

**Məsələ ilə bağlı musavat.com-a politoloq Fərhad Mehdiyev danışıb. O bildirib ki, Amerikanın sənayesi müharibəyə əsaslanır:** "Amerika üçün hərbi-sənaye kompleksləri daim işləməlidir. Onlara sifariş gəlməlidir, silah satılmalıdır və artıq bu, Amerikada iqtisadi artıma səbəb olan faktordur. Amerikada bəhs etdiyimiz hal Vyetnam müharibəsindən sonra yaranıb. Vyetnam müharibəsindən sonra Amerika 3-4 ildən bir öz hərbi silah arsenalını təzələməyi qarşıya məqsəd qoyub. Yəni bu silahları sata bilirsə satmalıdır, sata bilmirsə Əfqanıstan, İraq bu kimi ölkələrə göndərməlidir. Bu baxımdan desək ki, Amerika baş verən hərbi proseslərdən kənarda durur, doğru olmaz. Özünün iştirak etdiyi hərbi konfliktlər var, ancaq bəzən başqa dövlətlər arasındakı gərginliklərə qarışmır. Amerika Birinci Dünya müharibəsi zamanı savaşan ölkələrə silah satdı, İkinci Dünya müharibəsinə isə sonradan qoşuldu. Onun bir üstünlüyü də budur ki, digər ölkələrlə quru sərhədi yoxdur və özünü qoruya bilir. Eyni zamanda dünyanın birinci silah ixracçısıdır".

**Politoloq hesab edir ki, Rusiya ikinci "supergüc" olaraq arenaya geri qayıdır:** "Amerika dünyanın "supergüc"üdür və bunu danmaq olmaz. Ancaq hazırkı vəziyyətdə Rusiya da dünyada güc olaraq, öz əvvəlki yerinə qayıdır. "Soyuq müharibə" illərində "iki qütblü dünya" vardı. Bir tərəfdə Amerika, digər tərəfdə isə SSRİ dayanmışdı. SSRİ-nin parçalanması ilə Rusiya arenadan "supergüc" kimi kənarlaşdı. 20 ildir ki, Amerikanın simasında "tək qütblü dünya" görürük. Hazırda isə hətta üç qütb yaranıb. Üçüncü tərəfdə də Çin dayanıb. Ukraynanın daxilində gedən vətəndaş müharibəsində Rusiyanın birbaşa itkiləri olmadı. Ruslar iqtisadi sanksiyalar nəticəsində zərər gördülər. Hesab edirəm ki, sonuncu Türkiyə-Rusiya arasında olan gərginlik nəticəsində meydana çıxan sanksiyalardan, ruslar əsaslı şəkildə zərər görməyəcəklər. Bu prosesdə Amerikanın yeri isə Türkiyənin yanı olacaq. Bu, birmənalı şəkildə belədir. Çünki Türkiyə Amerika üçün heç bir təhlükə ərz etmir. Lakin regionda müxtəlif rəqib qüvvələr var. Məsələn, Rusiya Yaxın Şərqdə Amerika üçün əsas rəqibdir. Yalnız indiki məqamda məlum olub ki, Rusiyanın Suriyada üç hərbi aerodromu var. Qafqazda isə iki rəqib qüvvə var. Bu da Rusiya ilə Türkiyədir. Lakin dolayısı ilə Amerika Türkiyənin yanında olmaqla Qafqazda da "supergüc" kimi Rusiyanın qarşısına çıxır".

**Ekspert hesab edir ki, Rusiya-Türkiyə arasında gərginlik yaradan "təyyarə olayı"nda da Amerikanın izləri var:** "Bir çox analitiklər də bildirirlər ki, böyük ehtimalla Rəcəb Tayyib Ərdoğan Amerika ilə razılaşdıqdan sonra Rusiya təyyarəsini vurub. "Su-24" təyyarəsi bir dəqiqə ərzində 27 kilometr məsafə qət edir. Türkiyənin isə sərhəddəki koridorunun genişliyi 40 kilometrə yaxındır. Demək, hadisə iki dəqiqəyə yaxın zaman kəsiyində baş verib. Məsələni rusların türkmənləri vurması ilə əlaqələndirib müxtəlif şərh verənlər də var. Bir məqamı qeyd edim ki, oktyabrın əvvəllərində Rusiya təyyarəsi Türkiyənin sərhədlərini eyni şəkildə pozmuşdu. Həmin zaman Türkiyə, sadəcə olaraq, nota verdi. Ancaq o vaxt, ABŞ-ın Dövlət Departamentinin katibi Con Kerri bildirdi ki, Türkiyə istəsəydi həmin təyyarəni vura bilərdi. Bu isə o deməkdir ki, həmin zaman artıq "yaşıl işıq" yandırılmışdı. Ehtimal ki, Türkiyənin əli ilə hazırkı proseslərdə Amerika Rusiyaya "sillə" vurmaq istəyir. Doğrudur, Rusiya bir təyyarə ilə əsaslı heç nə itirmir. Ancaq məsələ burasındadır ki, Rusiyanın bu cür hərəkətləri çox zaman cavabsız qalırdı. İndi isə Amerika deyir ki, hərəkətlərinin qarşılığında biz də sənin cavabını verə bilərik".

**Ekspert deyir ki, Amerika silah-sursatı yenidən dövriyyəyə girir:** "Amerika anti-Əsəd koalisiyasına 50 tona yaxın yeni hərbi sursat verəcək. Göndərilən sursatların isə nə olduğu hələ ki bəlli deyil. Ola bilər ki, göndərilənlər elə məhz təyyarələrə qarşı müdafiə vasitələri olacaq".

**Ekspert Üçüncü Dünya müharibəsi ətrafında gəzən söhbətlərə bu cür münasibət bildirib:** "Bunun baş verəcəyini güman etmirəm. Çünki İkinci Dünya müharibəsindən sonra yaradılan BMT sisteminin məqsədi bu cür insidentlərə görə dünya müharibəsinin başlamasının qarşısını almaqdır. Dünya müharibəsinin qarşısını alan digər amil isə nüvə silahıdır. Nüvə silahı dövlətləri aktiv və təhlükəli müharibəyə girməkdən çəkindirir. Dünyada, misal üçün, bir ərazidə müharibə gedir, digər ölkələr isə buna kənardan dəstək verirlər. Silah satırlar, döyüşçü göndərirlər və sairə. Bunu dünya müharibəsi adlandırsaq, Suriyanın simasında görə bilərik ki, burada Livan, İran, Türkiyə, Amerika, Fransa , Rusiya kimi ölkələr iştirak edirlər. İstisna deyil ki, bu hadisəyə digər dövlətlərin də müdaxiləsi getdikcə artacaq. Bunun sonunun necə olacağını isə zaman göstərəcək".

❑ Əli RAİS

# Türkiyə Rusiyaya qarşı “qırmızı xətt” planını işə saldı



## Moskvanın israr elədiyi iqtisadi savaşa Ankara qoşulmaq zorunda qaldı; ekspertlərə görə, vəziyyətdən qardaş ölkə daha tez və daha az itki ilə çıxacaq, nəinki Rusiya, çünki...

**“Su-24" insidentinə görə Rusiya ilə Türkiyə arasında gərginlik davam edir. Ankara rəsmilərinin situasiyanı yumşaltmağa və əməkdaşlığı saxlamağa yönəlik təmkinli, praqmatik açıqlamalarına rəğmən, Rusiya prezidenti və onun komanda üzvlərinin sərt, aqressiv ritorikası və yersiz isterikası hələ ki qalır.**

Bunu Putinin Parisdə, BMT konfransı çərçivəsində Türkiyə və onun prezidenti Rəcəb Tayyib Ərdoğanın ünvanına növbəti dəfə ittihamlar səsləndirməsi, Ərdoğanla hər hansı təmasdan qaçması və hətta dövlət və hökumət başçıları ilə birgə xatirə şəkli çəkdirməkdən imtina eləməsi bir daha nümayiş etdirdi.

Məsələn, Kreml başçısı Parisdə keçirdiyi mətbuat konfransında eyni havanı çalaraq bəyan elədi ki, guya Türkiyə “Su-24" bombardmançı təyyarəsini məhz İŞİD-in nəzarətindəki ərazilərdən neft idxalının fasiləsizliyini təmin etmək məqsədilə vurub. Onun iddiasına görə, Moskvanın əlində Suriyada İŞİD-in və başqa terrorçu təşkilatların nəzarət elədiyi ərazilərdən neftin Türkiyəyə daşındığını göstərən dəqiq məlumatlar var.

Gözlənildiyi kimi, Putinin absurd ittihamına elə Parisdəcə prezident Ərdoğan dərhal və sərt şəkildə cavablandırıb. Türkiyə prezidenti bildirib ki, Rusiya Türkiyənin İŞİD-dən neft aldığını sübut eləsə, istefa verməyə hazırdır. **“Əks halda, sayın Putin də istefaya getməyə hazırdımı”**, - deyə o, haqlı sual edib?

***

Bu yerdə xatırladaq ki, Ərdoğan “Su-24" olayından sonra da İŞİD-i terrorçu, İslamı dünyada gözdən salan və müsəlman dünyasının ”xərçəng şişi" adlandırıb və müsəlmanları onunla mübarizəyə çağırıb. Məhz bu mövqeyinə görə o, çoxdan İŞİD-in “qara siyahı"sındadır. Yəni Kreml başçısının ittihamı yüngül tənqidə belə dözümsüzdür.

Əlbəttə ki, Putin heç bir halda öz vəzifəsindən getməyə hazırlaşmır. Bu ittihamlar da ona daxildə öz şişirdilmiş reytinqini və sifətini qorumaq üçün lazımdır. Təsadüfi deyil ki, Paris sammiti çərçivəsində heç bir ciddi ölkə,ələlxüsus Qərb dövləti onunla həmrəy olmadı, Türkiyəni qınamadı. Rusiya bu məsələdə faktiki, tək qaldı.

O da bəlli oldu ki, Moskvanın Ankaradan üzrxahlıq gözləməsi də əbəsdir. Bu məsələ qardaş ölkə üçün artıq qapanıb. Putini qəzəbləndirən, özündən çıxaran, pərt edən ən əvvəl budur. Ancaq özü yıxılan ağlamaz. Rusiya Suriya bataqlığına girəndə onun strateqləri gərək bütün mümkün fəsadları hesablamalı idilər...

***

İndilikdə isə Kremlin gücü yalnız Türkiyəyə qarşı iqtisadi müharibəyə çatır. O da ki, bumeranq effektlidir və onsuz da ağır durumda olan Rusiya əhalisinin həyat səviyyəsinə, beynəlxalq sanksiyalar altında aydan-aya zəifləyən ölkə iqtisadiyyatına yüz faiz neqativ təsir göstərəcək. Artıq Rusiyanın embarqolarına qarşı Türkiyə də “qırmızı xətt planı” hazırlayıb. Məlumata görə, dünən baş nazirin müavini Mehmet Şimşəyin sədrliyi ilə keçirilən toplantıda belə bir plan hazırlanaraq, təsdiqlənmək üçün baş nazir Əhməd Davudoğluna təqdim edilib.

**Həmin planın bəzi maddələri belədir:**

**1.** Rusiya gömrüklərində saxlanılan və geri qaytarılan meyvə-tərəvəz məhsulları türkiyəli ixracatçılarla görüşərək həmin mallar qiymətləndiriləcək.

**2.** Türkiyə hökuməti yerli toxuculuq, hazır geyim, elektrik avadanlığı, kimyəvi mallar istehsal edən və onun ixracı ilə məşğul olanların zərər görməməsi üçün məhsulların başqa bazarlara yönəldilməsinə yardım edəcək.

**3.** Rusiyanın Türkiyədən tranzit yolu kimi istifadə etdiyi marşrutların sayı azaldılacaq. Türkiyə ərazisindən keçən Rusiya TIR-larının içi diqqətlə yoxlanılacaq.

**4.** Planda Türkiyənin Akkuyu Atom Elektrik Stansiyasının tikintisində Rusiyaya alternativ axtarılması, rusiyalı turistlər üçün nəzərdə tutulan ucuz tur paketlərin ləğv edilməsi, bu yöndə başqa ölkələrdə kampaniyaların keçirilməsi də nəzərdə tutulub.

**5.** Bundan əlavə, Rusiyadan idxal edilən təbii qaza alternativ mənbələr axtarılacaq, ehtiyac yaranarsa, razılaşma yenilənəcək. Bu xüsusda Şimşək bildirib ki, Rusiya qaz ixracatını dayandırsa, İran və Azərbaycandan qaz idxalı artırılacaq, eyni zamanda sıxılmış qaz alınması yönündə danışıqlara başlamaq da istisna olunmur.

Qeyd edək ki, Türkiyə Azərbaycan qazını Cənub Qaz Dəhlizi vasitəsilə *(Bakı-Tiflis-Ərzurum kəməri)* idxal edir. Bundan başqa, qardaş ölkə “Şahdəniz” qaz yatağından 6,6 milyard kubmetr mavi yanacaq alınmasına dair Azərbaycanla kontrakt imzalayıb. Ankara həmçinin Əlcəzair və Nigeriya ilə müvafiq surətdə 4,4 və 1,2 milyard kub metr sıxılmış qaz alınmasına dair müqavilələr imzalayıb.

***

Bir sıra ekspertlərə görə, Türkiyədə liberal bazar iqtisadiyyatı və azad biznes mühiti olduğu üçün qardaş ölkə iqtisadiyyatı yeni sınaqdan daha tez və daha az itki ilə çıxacaq, nəinki Rusiya. Ayrı sözlə, pislik Putinə, ruslara qalacaq.

❑ **Siyasət şöbəsi**



# İŞİD Azərbaycanı “düşmən ölkə” siyahısına salmadı

**“İslam Dövləti” (İŞİD) terror təşkilatı düşmən saydığı ölkələrin siyahısının açıqlandığı yeni videomüraciət yayıb.**

Virtualaz.org saytı Polşanın “Gazeta Wyborcza” nəşrinə istinadən xəbər verir ki, yeni “qara siyahı”da 60 ölkənin adı var.

Bu siyahıya, İŞİD-in təbirincə deyilsə, “şeytanlar koalisiyası”na daxil olan 4 ölkə rəhbərlik edir. Bunlar İran, Türkiyə, ABŞ və Rusiyadır. Daha sonra isə Fransa və İsrail gəlir.

İŞİD-in düşmənləri siyahısında Ukrayna, Polşa, Litva və hətta Moldova da var, lakin onların adının bura nədən düşdüyü izah olunmur. Xüsusilə Ukraynanın adının bu siyahıda olması təəccüblüdür. Belə ki, məlumatlara görə, İŞİD yaraqlıları bu ölkədən silah-sursat alaraq Suriyada döyüşən tərəfdarlarına göndərir.

Azərbaycana gəlincə isə ölkəmizin adı İŞİD-in “qara siyahısı”na salınmayıb.

# Öz siftəsini korlayan deputat



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Böyük öndərimiz Məhəmməd Əmin Rəsulzadənin ünvanına Azərbaycanda hələ də çatlaq səslər eşidilir. İkiqat yazıqlar olsun ki, bu tarixi şəxsiyyətə, xalqa Cümhuriyyət və istiqlal bəxş eləmiş, ona “azadlıq dadızdırmış” KİŞİyə hörmətsizlik bu dəfə Gəncədə, AXC-nin elan edildiyi, üçrəngli bayrağımızın qaldırıldığı mənəvi paytaxtımızda edilib.**

Söhbət Rəsulzadəni “vətən xaini”, “satqın” adlandıran Naqif Həmzəyev ad-soyadlı bir zatdan gedir. Meydana yeni atılmış bu individ təzəlikcə hökumət siyahısı üzrə deputat mandatı alanlardandır, YAP Gəncə şəhər gənclər təşkilatının sədridir.

Görünür, başgicəllənməsi tutub, ilk debütdəcə işləri korlayıb, barıtı çox edib, təmsil elədiyi hakimiyyətə, YAP-a “ayı xidməti” göstərib. Hər halda onun “ümummilli lider” dediyi şəxs - sabiq prezident Heydər Əliyev Rəsulzadə haqda bəd fikirdə olmayıb, onu “istiqlaliyyətimizin qurucusu” adlandırıb. İndiki hakimiyyətin özü də Cümhuriyyət banisinə qarşı əvvəlki aqressiv mövqedə deyil - bu da var.

32 yaşında, deputat təyin edilənədək Gəncənin icra başçısının 1-ci müavini olmuş (hansı bacarığına görə - bu da aydındır, yəqin ki) Naqifin sərsəmləmələrini burada təkrar verməyə lüzum görmürük. Çünki söylədikləri təzə deyil. Onun kimin, hansı dairənin leksikonu ilə danışdığı da gün kimi aydındır.

Di gəl, Azərbaycan xalqının bu ləyaqətli oğluna, şəxsi xoşbəxtliyini və ailəsini belə öz xalqının istiqlalı yolunda təmənnasız fəda etmiş bu dahi insana qarşı hədyanlara ziyalılar, tarixçilər, araşdırmaçılar, professor Şirməmməd Hüseynov tərəfindən zaman-zaman ən yüksək səviyyədə layiqli cavablar verilsə də, yenə kimlərsə ortaya çıxıb xalqın heysiyyatı ilə oynamağa özündə cürət tapır.

Bihudə məşğuliyyətdir. Ona görə ki, Rəsulzadə birilərinin nə deməsindən asılı olmayaraq, çoxdan xalqın qəlbində özünə heykəl, taxt qurub, milli-mənəvi sərvətə, dövlətin və millətin əbədi tanınma nişanına - brendinə çevrilib.

Zaman-zaman Rəsulzadəni vicdansızcasına söyməklə kimlərsə çörək və karyera qazanıb, varlanıb, “parlayıb”. Amma o çörəyi yemək mümkün olmayıb. Olmayacaq da. Nədən ki, Rəsulzadə istiqlal qurucumuz olmaqla bahəm, bir dəyərdir - yeyiləsi, həzm olunası, vazkeçilməsi mümkünsüz olan dəyər!!

Yazıqlar olsun ki, YAP-ın bərkgedən gəncinə bu sadə həqiqət çatmayıb və Naqif çoxdan keçilmiş NAQİS yola qayıtmaqla hakimiyyətdən, havadarlarından “molodes” almaq sevdasına düşüb...

Başa düşürük, Rəsulzadənin adicə mənəvi varlığı da bu saxta millət vəkilinin təmsil elədiyi ideoloji qrupun, siyasi dairənin varlığına təhlükədir. Azərbaycan manatının üzərindın onun əksinin, Bakı Dövlət Universitetindən isə adının niyə götürüldüyü də ölkədə hamıya bəllidir.

Rəsulzadənin möhtəşəmliyi elə bundadır - xalqla onun əbədiyaşar qarşılıqlı sevgisində. Bu sevgi yasaq edildikcə, Rəsulzadəyə daşlar atıldıqca daha da böyüyür, şiddətlənir, şirinləşir...

Bişəkk, milləti təmsil edən deputat heç vaxt Rəsulzadə haqda hərzə-mərzə danışmaz, həqarəti özünə rəva bilməz. Bu, meşşanlıqdır, öz xalqının şanlı və fəxr ediləsi tarixinə qarşı siyasi tərbiyəsizlikdir, yediyin qaba tüpürməkdir.

Allah Azərbaycanı belə təhlükəli, manqurt gənclərdən, XXI əsrin potensial “əliheydər qarayevlərindən” qorusun ki, onlar daha yüksək dövlət vəzifələri ələ keçirməsinlər...

***

Adama deyərlər, heç olmasa, Məhəmməd Əmin Rəsulzadənin həyatı barədə bir kitab oxumusanmı? Onun əsərlərindən, Şirməmməd müəllimin Rəsulzadə haqda tarixi faktlara və həqiqətlərə söykənən bircə araşdırmasından xəbərin varmı?

Yoxdusa, o zaman təcili şəkildə mumla.

YENİ MÜSAVAT
N 268 (6296) 2 dekabr 2015



# Həyatın özünün ironiyası...

Hüseynbala SƏLİMOV

**Dövr də elə insanlar deməkdir. Bəli, konkret insanlar... Əslində "dövr keçir" və "dövr ötür" deyəndə də həmişə onu nəzərdə tuturlar ki, insanlar köçür bu dünyadan...**

Ən əsası isə dinin bu məsələni necə həll etməsindən asılı olmayaraq insanlar ölməzlik məsələsini özləri üçün çoxdan həll ediblər - yaxşı adamlar haqqında "dünyasını dəyişdi" deyirlər...

İndi mənim yada salacağım adamın nə qədər yaxşı olub-olmadığını deyə bilmərəm, çünki tanımamışam və bilməmişəm. Bu adamı sadəcə, onun gözəl filmlərinə görə tanımışam...

Bəli, kinorejissor E.Ryazanov da dünyasını dəyişdi. Bu adı eşidəndən onun haqqında düşünməyə başlamışam - fikirləşmişəm ki, görən, Eldar adı haradan peyda olub?..

Mən daha bir rus tanıyırdım ki, onun da adı Eldar idi. Tələbə idi. Özü də Bakıdan idi. Bir dəfə ondan adı haqqında soruşanda dedi ki, atamın dostunun adıdır...

Nə isə. Qayıdaq E.Ryazanov məsələsinə. Onu sevirdilər. Filmlərinə maraqla baxırdılar. İnsafən, o da yaxşı çəkirdi... Əgər kimsə deyirsə ki, sənətkar üçün dövr olmalıdır, şərait olmalıdır, düz deyir, amma yüz faiz yox. Elə sənətkarlar vardı ki, onlar sovet dövründə də yarada bilirdilər...

Onlardan biri də E.Ryazanov idi. Onun filmlərini - xüsusən də "Fleytanın unudulmuş melodiyası"nı bizim telekanallar da çox göstərib. Çox güman ki, o dövrün insanları bu filmi də, onun müəllifini də çox gözəl xatırlayırlar. Ona görə ki, xatırlanmalı insan idi...

Deyirlər ki, Rusiyada keçmiş sovet dövrü üçün böyük nostalji var. Amma biz bu nostaljini keçmiş ittifaq respublikalarına turist axınında görmürük. Həmin o nostaljini Rusiyanın televiziya ekranlarında görümrük. Bəs nədə hiss olunur bu, nostalji? Bəlkə yalnız Rusiyanın ekspansiv siyasətində? Bəlkə də...

Ruslar qəribə xalqdırlar. Dünyanı qamarlamağa hazırdırlar. Amma həmin bu dünya ilə nə edəcəklərini bilmirlər. Bəli, Krımı tutdular... Amma nə oldu?

Yarımada öz görkəmini dəyişdimi? İnsanların rifahı yüksəldimi? Orada nəsə tikdilərmi? Mən hətta düşünürəm ki, rusiyalı adamların özü oralara investisiya qoymaqdan çəkinirlər. Ona görə ki, mübahisəli ərazidir...

Amma mübahisəli olmayan məqamlar da var... Bunlardan biri də sovet mədəniyyəti, sovet kinosu idi. Amma mənə qalsa, onlara sovet dövrünün kino və mədəniyyəti deyərdim...

E.Ryazanov da sovet dövrünün sənətkarı idi, baxmayaraq ki, onun qəhrəmanları tipik sovet adamları, sovet məmurları idi. O sovet adamı haqda da əsl adam kimi çəkməyi bacarırdı...

Mən onun ideya xəttini təsnif etməkdə acizəm. Düşünürəm ki, o, realist idi və real məsələlərin gözünə bir az romantizm qatmağı bacarırdı...

Bilirsiniz bu, çox maraqlı məsələdir. Birini qoyub, o birisinə keçirəm. O gün bizim T.Salahov haqqında veriliş verirdilər. Təbii ki, onun rəsmlərini də göstərirdilər. Bəli, o, da sovet dövrünün rəssamı idi. Amma T.Salahov sovet dövrü haqqında elə çəkdi ki, dönüb bütün dövrlərin rəssamı ola bildi! Bunun sirri nədədir? Bəlkə də onda ki, janr çərçivələri əsl sənətkar üçün elə bir çətin problem deyil? Bəlkə onda ki, əsl sənətkar bu çərçivələrdə də nəsə deyə bilir?

Güman ki, belədir... T.Salahov da realistdir. Amma adam onun əsərlərinə baxmaqdan doya bilmir. Onun monumentalizmi adamı həqiqətən də məftun edir, həqiqətən də heyran qoyur...

Dorğusu, bilmirəm, E.Ryazanovla birgə T.Salahovun adını qoşa çəkmək nə qədər düzgündür? Ona görə ki, T.Salahovun böyüklüyü daha şəksiz və şübhəsizdir. Amma E.Ryazanov mübahisəli görünə bilər. Həm də onun bütün filmlərində bir ironiya, bir satira vardı...

Amma mənə həmişə elə gəlirdi ki, bu, bir yaradıcı insanın istifadə etdiyi və öz fikirlərini çatdırmaq üçün yararlandığı üsul deyil. Bu, həyatın özünün ironiyası idi...

Bəli, həyatın ironiyası idi... Yenə də "Fleytanın unudulmuş melodiyası"nı yada salmaq istəyirəm. O dövrdə nə qədər insan filmin qəhrəmanının keçirdiyi hissləri keçirib? Nə qədər insan birdən əlindəki, ayağındakı və ən başlıcası isə ürəyindəki buxovları qıraraq mövcud qaydalara, mövcud gerçəkliyə üsyan etmək istəyib? Bəli, nə qədər insan bunu etmək istəyib, amma bacarmayıb! O səbəbdən ki, yeni həyata başlamaq və rahat məmur həyatını bir fleyta çalanın, bir musiqiçinin həyatına dəyişmək elə də asan deyildi...

# Ölkə siyasətində qadın azlığı: 55 partiya sədrinin arasında xanım yoxdur

## Türkiyədə Milliyyətçi Hərəkat Partiyasının başqanlığına məşhur xanım siyasətçi öz iddiasını ortaya qoyub, bəs Azərbaycanda...

**Türkiyənin ən böyük üç partiyasından biri sayılan Milliyyətçi Hərəkat Partiyasının başqanlığına məşhur xanım siyasətçi Meral Akşener öz iddiasını ortaya qoyub. Azərbaycanda isə qadınların siyasətə, xüsusilə siyasi partiya sədrliyinə meyl etməsi, iddiaçı olması müşahidə edilmir. Dövlət qeydiyyatından keçən 55 partiyadan heç birinin sədri qadın deyil.**

Hələ ki prezident, baş nazir və ya nazir səviyyəsində də hansısa qadın təmsil olunmayıb. Amma ötən illərlə müqayisədə parlamentin və hökumətin tərkibində qadınlar tədricən müəyyən qədər yer tuta biliblər. Hazırda Milli Məclisin rəhbərliyində Bahar Muradovanın timsalında bir qadın təmsil olunur. Nazirlər Kabinetinin tərkibində isə yalnız Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri qadındır. Partiyalara gəldikdə isə, hakim Yeni Azərbaycan Partiyasının sədrinin 4 müavinindən biri qadındır. Partiyanın Siyasi Şurasında 88 şəxsdən 12-si qadındır. 20 nəfərlik idarə heyətində isə 3 qadın təmsil olunur. 15 üzvü olan Mərkəzi Nəzarət-Təftiş Komissiyasında isə iki qadın təmsilçilikdədir.

**Müsavat Partiyası Məclisinin sədri Nüşabə Sadıqlı** qadınların siyasi partiya sədri olmaq iddiasına düşməməsinin səbəblərinin olduğunu bildirdi. N.Sadıqlı öncə qeyd etdi ki, Azərbaycanda qadınların partiyanın seçkili orqanlarında yer almasına Müsavat ən çox şərait yaradan partiyadır: "Müsavat Partiyasında qadınlara 25 faiz kvota var. Yeni Müsavatın bütün seçkili orqanlarında qadınların ən azı 25 faiz təmsilçiliyi mövcuddur. Cəmiyyətdə qadınların siyasi partiya sədri olmaq iddiasına düşməməsinin səbəblərindən biri cəmiyyətdə mühafizəkarlığın yüksək olması, siyasi fəaliyyət üçün demokratik şəraitin məhdudluğu, siyasətin çirkin peşə olması haqda yanlış təsəvvürlərdir. Xüsusən də müxalifət partiyasında olmaq, müxalif partiyanın sədri olmağın məhrumiyyətlərlə üzləşmək riski yaratması qadınların partiya sədri olmaq iddiasına düşmələrində tormozlayıcı məsələlərdir. Təəssüf ki, Azərbaycan cəmiyyəti hələ də qadını partiya sədri və digər yüksək siyasi vəzifələrdə görmək səviyyəsində deyil. Halbuki qadınlar siyasətdə çoxalsa, partiya sədrləri sırasında qadınlar olsa, bu, Azərbaycan siyasətində yeni mühit, yeni canlanma, yeni müsbət mənzərə yaradar. 55 qeydiyyatdan keçmiş partiyanın hamısının sədri kişilərdir. Bəlkə ölkədə siyasətin indiki hala düşməsinin kökündə duran amillərdən biri də elə budur".



Meral Akşener

**Qadın Konsensus Mərkəzinin rəhbəri Aynur Camalqızı** isə bildirdi ki, Azərbaycanda siyasi partiya sədrləri sırasında qadınlar olmasa da vəzifədə olan və ictimai işlərdə iştirak edən qadınların sayı durmadan artır. Ölkənin 85 rayonu üzrə icra hakimiyyəti başçısının qadın müavinlərinin sayı artaraq 78-ə çatıb. Bu yaxınlarda İradə Gülməmmədova Abşeron İcra Hakimiyyətinin başçısı təyin edildi. Bələdiyyə üzvü seçilmiş qadınların sayı əvvəlki seçkilərə nisbətən artaraq 35 faizə qalxıb.

**1 noyabrda Milli Məclisə keçirilən seçkilərdən danışan Aynur Camalqızı qeyd etdi ki, qadın deputatların sayında da artım olub. 125 deputatdan 21-i qadındır. 2010-cu il parlament seçkilərində qadınların sayı 20 olmuşdu:** "Ümumiyyətlə, qadın namizədlər bu seçkidə xüsusi fəallıq göstərirlər. Qadınlar faiz etibarilə çoxluq təşkil etməsələr də, seçkiqabağı təbliğat işlərini çox aktiv qurdular, bu aktivlik sayəsində də qadınların seçkidə fəal iştirakı diqqətdən kənar qala bilməzdi. Gələcəkdə qadınların siyasi partiyalarda da çəkisinin artacağı ehtimalı yüksəkdir".

❑ Etibar SEYİDAĞA

# İqtidarın ixtiyarları - Nazirlər Kabineti qocalar evini xatırladır...

## Hakimiyyət yaşlı təbəqəyə daha çox önəm verir; bu, sadiqlikdən, yoxsa kadr qıtlığından irəli gəlir?; sağalmaz "xəstəlik" müxalifətin içərisinə də yeriyib...

**Azərbaycan hakimiyyətini təşkil edən vəzifəli şəxslərin əksəriyyəti yaşlı insanlardır. Yüksək postlara rəhbərlik edən şəxslərin əksəriyyətinin yaşı 60-dan yuxarıdır. Bu da dövlət idarəçiliyində iş əmsalının aşağı düşməsinə gətirib çıxarır.**

Ötən gün yazmışdıq ki, baş nazirin müavini Abid Şərifov Çində işgüzar səfər zamanı xəstələnib. Onun Pekin xəstəxanalarından birində müalicə olunduğu deyilir. A.Şərifovla Çinə getmiş nümayəndə heyətimizin digər üzvləri ölkəyə qayıtsalar da, o, xəstəliyi səbəbindən hələ də Azərbaycana dönə bilməyib. Bu faktın özü də göstərir ki, yaşı 70-i keçmiş şəxslərin yüksək dövlət vəzifəsi tutmaları yanlış siyasətdir.

Nazirlər Kabinetinin rəhbərinin 80 yaşı var. Müavinlərinin isə Əli Əhmədovla İsmət Abbasov istisna olmaqla, 70-dən yuxarıdır. Digər iri ranqlı məmurların da yaşları kifayət qədər yüksəkdir. Bu, təkcə yuxarı qurumlara deyil, yerli qurumlara da sirayət edib. Rayon icra başçılarının yaşlarına nəzər yetirsək, bunu açıq şəkildə görərik.

Ekspertlər hesab edirlər ki, iqtidarın yaşlı təbəqəyə önəm verməsinin əsas səbəbi sadiqlikdir. Çünki bu şəxslərin əksəriyyətinin vəzifədə işləmə müddəti 10-20 il arasında dəyişir. Bir növ ölkə hakimiyyəti bu şəxsləri öz siyasətinə "ram" edib...



**Natiq Miri:** "65 yaş dövlət idarəçiliyində pensiya yaşı deməkdir"

Qeyd edək ki, bu hal müxalifətdə də var. Bunu partiya rəhbərlərinin, eləcə də onların müavinlərinin timsalında deyə bilərik.

**Politoloq Natiq Miri hesab edir ki, bu kimi hallar hüquqin ölkəmizdə ali olmamasının göstəricisidir:** "Azərbaycanda hüquq ali deyil. Çünki qanunvericilikdə Azərbaycanda 65 yaş dövlət idarəçiliyində pensiya yaşı deməkdir. Avtomatik olaraq, bu insanlar vəzifələrindən azad olurlar. Yaş senzi ilə bağlı insanlar pensiyaya göndərilirlər. Amma idarəetmədə bu məsələyə ikili yanaşma var. Bu da birbaşa hakimiyyətin siyasi maraqlarına bağlı məsələdir. Səbəblərdən biri də hakimiyyətin ciddi kadr bankının olmamasıdır. Əgər olsaydı, bu yaşlı vəzifə sahiblərini asanlıqla dəyişmək mümkün olardı. Dəyişmirsə, demək, hakimiyyətin ciddi alternativ komandası yoxdur. İqtidarın içərisində olan siyasi mübarizəsini əsas kimi göstərmək olar. Hakimiyyətin siyasi komandası monolit deyil. Bu komandaların içərisində müəyyən şəbəkələrlə bağlı olan şəxslər var. Bu şəxslər daim mübarizə vəziyyətindədirlər".

**Politoloq hakimiyyətin sadiqliyə önəm verdiyini də qeyd etdi:** "İqtidarın əsas prinsipi qanunun aliliyi deyil, sadiqlikdir. Kim bu prinsipə ziddirsə, dərhal hakimiyyət tərəfindən vurulub. Dünən də belə idi, bu gün də".

**N.Miri müxalifət daxilində də bu "xəstəliy"in cərəyan etməsinə toxundu:** "Siyasi müstəvidə bütün hadisələr bir-birinə təsir etmək gücündədir. Hakimiyyət təəssüflər olsun ki, bəzi siyasətini müxalifətə də ötürüb. Kimlərsə oturduqları kreslolardan getmək fikrində deyillər. Yaxud gedirsə, özünün seçdiyi davamçısını qoyub gedir. Siyasi partiyalarda daxili demokratiya nizamnaməsi var. Buna uyğun olaraq, rəhbərlik həmin partiyaların üzvləri tərəfindən seçilməlidir. Bütün bunlar ölkəmizin gələcəyi üçün müsbət heç nə vəd etmir. Təsəvvür edin ki, 30 yaşlı bir gənclə 75 yaşlı bir şəxs arasındakı dinamiklik necə uyğun gələ bilər? Yaşlı nəsildə çeviklik və təşəbbüskarlıq o qədər minimum səviyyədədir ki, gənclərlə müqayisəyə gələ bilməz. Gənclər daha dinamik, çevik və fiziki cəhətdən güclü insanlardır. Gənclərin hakimiyyətə gəlməsi daha uyğun olardı. Biz bunu Gürcüstanda Saakaşvili hakimiyyəti dönəmində də gördük. Hələ də həmin kadrlardan Ukraynada dövlət quruculuğunda istifadə edirlər. Azərbaycanda siyasi, iqtisadi və digər sahələr üzrə ixtisaslı kadrlar var. Xaricdə təhsil alan minlərlə gənc hazırda işsizdir. Bu insanları vəzifələrə təyin etməklə böyük nəticələr qazanmaq mümkündür. Sadəcə, bunun üçün siyasi iradə lazımdır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 268 (6296) 2 dekabr 2015

**Türkiyə-Rusiya münasibətlərində yaranan gərginlik fonunda hər keçən gün yeni-yeni məqamlar ortaya çıxır. Hazırda dünyanın əsas diqqətində olan məsələ qardaş ölkənin Bosfor və Dardanel boğazları ilə bağlı atacağı addımdır. Şimal qonşumuzla münasibətlər müharibə həddinə çatarsa, Türkiyə şəxsi təhlükəsizliyini təmin etmək üçün bu boğazları bağlamaq hüququna malikdir.**




# Türkiyə rusları “boğazdan” sıxır...

## Qardaş ölkə Bosfor və Dardanel boğazlarını bağlayarsa, Rusiya çətin duruma düşəcək; Montre Konvensiyasının şərtləri Türkiyənin üstünlüyünü artırır

Belə ki, 1936-cı ildə Boğazlar haqqında bağlanan Montre Konvensiyasına görə, Türkiyə istənilən dövlətlə müharibə vəziyyətində olduğu təqdirdə şəxsi təhlükəsizliyi baxımından hər iki boğazı bağlaya bilər. Bu baxımdan Rusiya hazırda bu təhlükə ilə üz-üzədir. Əgər Türkiyə bu addımı atarsa, bu, rus hərbi gəmilərinin Suriyaya getməsinin qarşısına sədd çəkəcək. Nəticədə Suriyadakı rus ordusunun təchizatı zəifləyəcək. Artıq rəsmi Ankara boğazlarla bağlı Rusiyaya mesajlar verməkdədir.

Dekabrın 1-də Rusiya mətbuatına istinadən xəbər yayılıb ki, Türkiyə Rusiya gəmiləri üçün Bosfor boğazını bağlayıb. Məlumata görə, Türkiyə ötən gündən başlayaraq gəmilərə çətinliklər yaratmağa başlayıb.

Hazırda vəziyyətin gərgin olaraq qaldığı və onlarla gəminin Qara dənizin boğaza yaxın hissəsində gözlədildiyi bildirilir.

**Politoloq Şahin Cəfərli “Yeni Müsavata”a bildirdi ki, Bosfor və Dardanel boğazları Rusiya üçün çəkindirici faktorlardan biridir:** “Boğazlar Türkiyənin əlində çox təsirli bir strateji silahdır. Türkiyə Silahlı Qüvvələrinin gücü, eləcə də NATO faktoru ilə birlikdə Rusiya üçün çəkindirici amillərdən biridir. Bu 3 mühüm faktor Rusiyanı Türkiyəyə qarşı hər hansı bir aqressiv addım atmazdan əvvəl ciddi şəkildə düşünməyə vadar edəcək və edir. İstanbul və Çanaqqala (Bosfor və Dardanel) boğazlarının hüquqi statusu 1936-cı ildə İsveçrənin Montre şəhərində imzalanmış konvensiya ilə tənzimlənir. 1923-cü ildə Lozanna müqaviləsinin əlavəsi kimi imzalanmış boğazlar haqda sazişin yerinə qəbul olunan bu konvensiyada Türkiyənin boğazlar üzərində suverenlik hüququ təsbit edilib. Sənədə əsasən, sülh dövründə istənilən ölkənin gəmiləri hər hansı məhdudiyyət olmadan, günün istənilən saatında boğazlardan keçə bilər. Lakin Qara dənizdə akvatoriyası olmayan dövlətlərin hərbi gəmiləri üçün vaxt məhdudiyyəti və həmin gəmilərin ölçüləri ilə bağlı məhdudiyyətlər qoyulub. Məsələn, Ukrayna problemi başladıqdan sonra ABŞ nisbətən kiçik ölçülü hərbi gəmiləri tez-tez Qara dənizə daxil olur, amma həmin gəmilər maksimum 21 sutka bu dənizdə qala bilər. Montre Konvensiyasına əsasən, Türkiyə özünə qarşı hərbi təhdid hiss edərsə, təhlükənin qaynaqlandığı dövlətin hərbi gəmiləri üçün xüsusi rejim tətbiq edərək həmin gəmilərin keçidini ciddi şəkildə ləngidə bilər. Məsələn, Rusiya cavab addımı kimi Türkiyə hərbi təyyarəsini qanunsuz olaraq vurarsa, bu durumda Ankaranın boğazlarda Rusiya üçün xüsusi rejim tətbiq etmək hüququ yaranacaq. Türkiyə ilə Rusiya arasında hərbi toqquşma başlayacağı təqdirdə isə Türkiyə boğazları tamamilə Rusiya hərbi gəmilərinin üzünə bağlaya bilər. Hər iki halda Rusiyanın bu istiqamətdən Aralıq dənizinə çıxışı məhdudlaşacaq. Bu da Qara dənizin Rusiya üçün gölə çevrilməsi mənasına gəlir. Bu durumda Suriyadakı Rusiya hərbi bazası mühüm logistika imkanından məhrum olacaq və həmin bazanın təchizatında çox ciddi problemlər yaranacaq”.

**Politoloq boğazlar bağlanarsa, Rusiyanın Suriyada üzləşəcəyi problemlərdən danışdı:** “Məlumdur ki, Rusiya Suriyadakı qüvvələrini silah-sursat, ərzaq və digər zəruri vasitələrlə Qara dəniz-Mərmərə-Egey-Aralıq dənizi marşrutu ilə təchiz edir. Bu marşrut Suriyaya ən qısa yoldur. Belə ki, hazırda Rusiyanın Qara dəniz sahillərindən yola çıxan hərbi gəmi 3 gün sonra Suriyanın Bəşər Əsəd rejiminin nəzarətində olan Latakiya limanına çatır. Boğazlar bağlansa, bu müddət alternativ yollarla 13-14 günə yüksələcək ki, bu da Suriyadakı Hmeymim bazasının yarımblokada şəraitində qalmasına və Rusiya hərbi rəhbərliyinin Suriyada hərbi-taktiki dəyişikliklərə operativ reaksiya qabiliyyətinin məhdudlaşmasına gətirib çıxaracaq. Rusiya hazırda istifadə etdiyi və şərti olaraq "şiə hava koridoru" adlandıra biləcəyimiz Azərbaycan-İran-İraq dəhlizindən keçməklə hərbi nəqliyyat təyyarələri ilə Suriyaya yük göndərə bilər, amma bu, əvvələ, maddi baxımdan çox baha başa gələcək, ikincisi də, tam etibarlı variant sayıla bilməz. Çünki ABŞ-ın təzyiqi ilə İraq hökuməti istənilən vaxt bu dəhlizi bağlaya bilər. Artıq Ankara Rusiya tərəfindən aqressiv addımların atılacağı təqdirdə, boğazları bağlaya biləcəyinə dair mesaj verməkdədir. Noyabrın 28-də İstanbul və Çanaqqala boğazlarını əlaqələndirən Mərmərə dənizində Türkiyə sahil mühafizə qüvvələrinin təlimləri başlayıb. Təlimdə formal olaraq antiterror və qeyri-leqal miqrantların ölkəyə daxil olmasını əngəlləmək tədbirləri sınaqdan keçirilsə də, şübhə yoxdur ki, digər məqsəd Moskvaya göz dağı verməkdir. Bundan başqa, Türkiyə Hərbi Dəniz Qüvvələrinin “İnönü” sualtı qayığı Qara dənizin qərb hissəsinə keşik çəkməyə göndərilib. Artıq məlumatlar var ki, Türkiyə Rusiya gəmilərinin boğazlardan keçidini az da olsa, ləngitməyə başlayıb. Bu, Türkiyə dövlətinin öz maraq və mənafelərini qorumaqda qətiyyətini göstərir. Rusiya bütün bunlardan nəticə çıxararaq Türkiyə ilə yaranan gərginliyin yüksələn xətlə davam etməsində maraqlı olmamalıdır”.

Türkiyə beynəlxalq hüquqa hörmət etməyə davam edəcək.

**Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında ABŞ-ın NATO-dakı rəsmi nümayəndəsi Duqlas Lyut söyləyib. Onun sözlərinə görə, Ankara Bosfor boğazını Rusiyanın hərbi və mülki gəmiləri üçün bağlamayacaq:** “Türkiyə on illər ərzində Montro razılaşmasına uyğun olaraq, öz üzərinə düşən beynəlxalq öhdəliklərə çox ciddi şəkildə əməl edib. Mən ümid edirəm ki, bu situasiya dəyişməyəcək”.

❑ **Cavanşir ABBASLI**

# Ankaranın böyük uğuru: Türkiyə-AB anlaşması

## **Politoloq:** “Brüssel anladı ki, Türkiyəsiz bu problemi həll edə bilməyəcək...”

**Türkiyə ilə Avropa Birliyi arasında uzun müddətdən bəri davam edən gərginliyi isti münasibətlər əvəzləyib. Noyabrın 29-da Brüssel şəhərində keçirilən ikitərəfli danışıqların müsbət sonluqla bitməsi Ankaranın diplomatik qələbəsi kimi qiymətləndirilir.**




Əldə olunan razılığa əsasən, Türkiyə Avropa Birliyi qarşısında götürdüyü öhdəlikləri yerinə yetirərsə, gələn ilin oktyabr ayından etibarən bu ölkə ilə AB arasında vizasız rejim tətbiq ediləcək. Bundan əlavə, Türkiyə ilə AB arasında daha 3 məsələ öz həllini tapıb. Tərəflər arasında əldə edilən razılıqlar aşağıdakı kimidir: **1.** Avropa Birliyi qaçqınların vəziyyəti ilə bağlı edilən yardımları nəzərdən keçirəcək. **2.** Türkiyə burada yaşayacaq suriyalı qaçqınların işlə təmin edilməsi ilə bağlı qanunvericilik aktlarında dəyişiklik ediləcək. Hər il Avropa Birliyi ilə Türkiyə arasında bir toplantı keçiriləcək. **3.** İl ərzində 2 sammit keçiriləcək.

Türkiyənin baş naziri Əhməd Davudoğlu AB-nin Türkiyəyə 3 milyard avro yardım göstərəcəyi barədə məlumatları şərh edərkən deyib ki, əslində bu, Suriya qaçqınlarına ayrılan vəsaitdir. Türkiyənin indiyədək 2,5 milyon qaçqını qəbul etməsini nəzərə alsaq, bu, qardaş ölkənin xərclərinin qarşılığında elə də böyük vəsait deyil. Yəni bu yardımın daha çox siyasi çəkisi var. Rusiya ilə qarşısdurma vəziyyətində olan və Kremlin sanksiyaları ilə üzləşən Türkiyənin Avropadan açıq dəstək alması çox mühüm məsələdir.

Düzdür, bundan sonra Avropa Birliyinin öz qapılarını Türkiyəninü üzünə taybatay açması da inandırıcı görünmür. Çünki hələ də Türkiyəyə aqressiya ilə yanaşan qüvvələr az deyil. Elə bu arada Avropa Birliyinin (AB) Türkiyənin quruma üzvlüyü üçün müzakirələri bərpa etməsi İtaliya müxalifətini qəzəbləndirib. Sağçı Şimal Liqası (Lega Nord) Partiyasının lideri Matteo Salvini Türkiyə-AB zirvəsindən sonra twitter-də Türkiyə əleyhinə fikirlər paylaşıb. **“Miqrantlar üçün Avropadan Türkiyəyə 3 milyard avroluq bir hədiyyə. Bəziləri də eyni Türkiyənin Avropa Birliyinə girməsini istəyir. Onlar Avropa Birliyinə girirsə, biz çıxaq”** - partiya lideri yazıb. Üstəlik, Avropa Birliyi Türkiyənin qarşısına illərdir öhdəliklər qoyub və onların həllini tələb edir. Kipr probleminin çözülməsi də onlardan biridir.

Fransanın keçmiş rəhbərliyinin “nə Türkiyə Avropa Birliyinə lazımdır, nə də Avropa Birliyi Türkiyəyə” yanaşmasından fərqli olaraq bu gün situasiya tam fərqlidir. Bəzi müşahidəçilər hesab edir ki, Türkiyənin qaçqın axınının qarşısında bufer ölkə rolunu oynaması, üstəlik, Rusiyaya qarşı açıq dirənişi onun önəmini artırıb. Hətta Türkiyə-Avropa Birliyi sammitinə Almaniyanın kansleri Angela Merkel də qatılıb. Hansı ki, Merkel bir neçə il öncə “Biz Türkiyənin tam hüquqlu üzvlüyünü istəmirik” demişdi. Türkiyə-Avropa Birliyi münasibətləri hara qədər inkişaf edə bilər? Ümumiyyətlə, AB-nin Ankaraya “yaşıl işıq” yandırmasının səbəbləri nədir?

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, Avropa Birliyinin Türkiyə ilə yaxınlaşmaq istəyi Türkiyə-Rusiya gərginliyi ilə bağlı deyil:** “Bunun üçün NATO var. Avropa Birliyi-Türkiyə sammiti Rusiya təyyarəsinin vurulmasından öncə razılaşdırılmışdı. Bu haqda ”Böyük iyirmilərin" Antalya toplantısında razılıq əldə edilmişdi. Avropa Birliyi çox çətin durumda olduğundan Türkiyəyə müraciət etdi. Yoxsa miqrant axını Avropada problem yaratmasaydı, Brüssel Ankara “gəl, oturaq, ortaq mövzuları müzakirə edək” kimi təklif irəli sürməzdi. Avropa Birliyi illərdir Türkiyə ilə müzakirəyə ehtiyac duymurdu, qapılarını qardaş ölkənin üzünə qapatmışdı, birliyə üzvlük məsələsini arxa plana keçirmişdi. Digər tərəfdən Suriyada başlayan müharibə nəticəsində 2 milyon qaçqın Türkiyəyə yerləşdirildikdə də Brüssel susurdu, Türkiyəyə heç bir maddi və mənəvi dəstək vermirdi və düşünürdü ki, “bundan bizə nə?” Ancaq elə ki, həmin qaçqınların bir hissəsi müxtəlif yollarla Avropaya axın etdi, Parisdə terror aksiyası oldu, Brüssel anladı ki, Türkiyəsiz bu problemi həll edə bilməyəcək".

**E.Şahinoğlunun sözlərinə görə, hazırda vəziyyət Türkiyənin xeyrinə dəyişib:** “Birincisi, Avropa Birliyi Türkiyədəki qaçqınlara 3 milyard dollar yardım ayıracağını açıqlayıb. Əslində Brüssel bunu Türkiyəyə minnət etməməlidir. Çünki Türkiyənin özü qaçqınlara artıq 7 milyard dollar xərcləyib. İkincisi, Avropa Birliyi gələn il Türkiyə vətəndaşlarına vizasız gediş-gəliş vədi verib. Və ən nəhayət, üçüncüsü, Avropa Birliyi Türkiyə ilə üzvlük məsələsini yenidən müzakirəyə çıxaracaq. Əlbəttə, bunlar önəmli addımlardır. Ancaq Brüssel ikili standartlarından da əl çəkmir. Türkiyəyə ayıracağı 3 milyarda belə bir şərt qoşur ki, "xərclərin monitorinqini aparacağıq". Yaxud Avropa Birliyi Türkiyənin üzvlüyü üçün “Türkiyə Kipr probleminin həllini sürətləndirməlidir” deyilir. Aydındır ki, Kipr probleminin həllində Ankara bəlkə də Brüsseldən çox maraqlıdır. Ancaq Ankara Kipr türklərinin haqlarının pozulmasına və ya nəzərə alınmaması hesabına Brüsselin tələbini yerinə yetirməyəcək".

**Buna baxmayaraq, politoloq əmindir ki, Brüssellə münasibətlərdə iplər Türkiyənin əlindədir:** “Türkiyə mirqant axınının Avropaya yön almaması üçün ciddi nəzarət tətbiq edəcək. Bu yolla Avropa İŞİD üzvlərinin köhnə qitəyə istiqamətlənməsinin də qarşısını ala biləcəyini proqnozlaşdırır. Türkiyə bunu bacararsa, Brüssel Ankara ilə üzvlük məsələsini ciddi şəkildə müzakirə etməli olacaq. Əks halda, Ankaranın nə marağı olacaq ki, suriyalı qaçqınların tamamına təkbaşına nəzarət etsin?”

❑ **Cavid TURAN**

# Hacı Məmmədovla bağlı həyəcanlı məlumatlar



## Məşhur qanqsterin yenidən vəkil tutaraq istintaq orqanına müraciət etməsi Eldar Mahmudov və onun ətrafında ciddi narahatlıq yaradıb

**Milli Təhlükəsizlik Nazirliyində (MTN) oktyabrın 17-də baş tutan xüsusi əməliyyat illərlə qapalı qalan bir çox cinayət xarakterli olayları ortaya çıxarıb. İş adamlarının, sahibkarların talanmasından tutmuş MTN-ə pul qarşılığında işə düzəlmə, MTN Akademiyasına qəbul etmə halları da gələn məlumatlar sırasındadır. Təəssüf ki, bu məlumatlarla bağlı dəqiqləşdirmə aparmaq istəyimiz hüquq-mühafizə orqanları tərəfindən "istintaq gedir" nidası ilə cavabsız buraxılır...**

### MTN Akademiyasına Mahmudov xətti ilə düşən 50 müdavim kənarlaşdırılıb?

Redaksiyamıza daxil olan son məlumata görə, Eldar Mahmudov tutduğu postdan uzaqlaşdırılandan sonra Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasında da yoxlamalar aparılıb. Nəticədə 50-yə qədər müdavim akademiyadan uzaqlaşdırılıb. Onlara "hələlik sizinlə bağlı qərar yoxdur" deməklə təhsildən ayırıblar. Məlumata görə, akademiyadan uzaqlaşdırılan müdavimlər sırasında milli təhlükəsizlik nazirinin sabiq müavini, general-mayor Elçin Əliyevin oğlu da var. E.Əliyevi noyabrın 14-də prezidentin imzaladığı sərəncamla vəzifədən uzaqlaşdırıblar. Baş Prokurorluğun həbs edilmiş MTN-çilərlə bağlı yaydığı məlumatda E.Əliyevin adı yoxdur. Yada salaq ki, bir qədər əvvəl yayılan məlumatlarda bildirilirdi ki, ilk dəfə Eldar Mahmudovun nazir olduğu vaxtlarda MTN-də işə qəbul edilən, birbaşa nazirliyin özünə və ya Bakı qarnizonuna təyinat alan şəxslərdən 70 min dollar, Bakı qarnizonundan kənarda yerləşən rayon strukturlarına qəbul edilən əməkdaşlardan isə 50 min dollar rüşvət tələb edilib. Həmçinin MTN Akademiyasına qəbul üçün 150 min dollar, dinləyici kimi qəbula isə 30 min dollar rüşvət tələb edilib.

### Hacı Məmmədovun həyatına təhlükə varmı?

Redaksiyamıza daxil olan digər bir xəbər isə 10 il əvvəl MTN-in həyata keçirdiyi "Qara Kəmər" əməliyyatı zamanı tutularaq istintaqa cəlb edilən Hacı Məmmədovla bağlıdır. Belə məlumatlar var ki, Hacı Məmmədovun yenidən vəkil tutaraq istintaq orqanına müraciət etməsi Eldar Mahmudov və onun ətrafında ciddi narahatlıq yaradıb. Belə ki, Hacı Məmmədovun bacısı Arifə Məmmədova bir neçə gün əvvəl "Yeni Müsavat"a müsahibəsində deyib ki, qardaşı yenidən ifadə vermək istəyir. A.Məmmədova qardaşının birbaşa rəisi olmuş Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinin sabiq rəisi Zakir Nəsirova qarşı yalan ifadə verməyə məcbur edildiyini, məcbur edən şəxslərin isə sabiq MTN rəhbərliyi olduğunu açıqlayıb. A.Məmmədova "bu işə kim qol qoyubsa, hamısı dünyasını dəyişib" deməklə hüquq müdafiəçisi Elçin Behbudovun ölümünə toxunub. Deyib ki, Hacı Məmmədov hüquq müdafiəçisinə müraciət edərək onu yanına çağırıb. Lakin E.Behbudovun 2 gün sonra qəfil dünyasını dəyişməsi Hacı Məmmədovla görüşünü əngəlləyib. Belə bir vəziyyətdə Hacı Məmmədovun özünün həyatının təhlükədə olması haqda müzakirələr aparılır. Yada salaq ki, Hacı Məmmədov 2005-ci il martın 10-da həbs ediləndən sonra MTN-in İstintaq Təcridxanasında saxlanılır. 2006-2007-ci illər ərzində Hacı Məmmədov və digərlərinin işi üzrə keçirilən məhkəmə prosesində o, yarımçıq ifadələr verməklə, digər təqsirləndirilən şəxslərin barəsində bir-birinə zidd ifadələr səsləndirməklə yaddaşlarda qalıb. İndi məlum olur ki, H.Məmmədov məhkəmədə yalan ifadələr verib. Konkret olaraq Zakir Nəsirovla bağlı hissədə doğru olmayanları dilə gətirib, bununla da generalın şərlənməsi, ömürlük həbsə alınması təmin olunub.

H.Məmmədovun bacısı deyir ki, qardaşını belə ifadələr verməyə məcbur ediblər. Barəsində məhkəmənin ömürlük azadlıqdan məhrumetmə cəzası çıxarılandan sonra onu MTN-də saxlamaqla daim nəzarətdə olması təmin olunub. Qanuna görə, ömürlük məhkumlar heç bir halda Qobustan həbsxanasından kənar saxlanıla bilməzlər. Lakin Hacı Məmmədovu yalan ifadə verməyə məcbur edən Eldar Mahmudov və ətrafı qanunu pozmaqla onu faktiki olaraq şəxsi girovları kimi orada saxlayıblar. Bununla da son 10 il ərzində Hacı Məmmədovun həqiqətləri açıb deməsinin qarşısı alınıb. İndi isə Hacı Məmmədov danışmağa qərar verib. Belə bir halda onun həyatına təhlükə yaranması haqda fikirlər diqqətə alınmalıdır.

Eyni zamanda qeyd edək ki, MTN-in İstintaq Təcridxanası xüsusi rejimli bir təcridxanadır və quruma təcrübəli general Mədət Quliyev rəhbərlik edir, belə bir halda situasiya dəyişir.

Xatırladaq ki, noyabrın 25-də Baş Prokurorluğun yaydığı məlumatda MTN-in 21 sabiq əməkdaşının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edildiyini bildirilib. 19 şəxs barəsində həbs-qətimkan tədbiri, 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib, istintaqdan yayınan 1 şəxs barəsində isə həbs-qətimkan tədbiri seçilməklə axtarış elan edilib. Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərər çəkmiş şəxs qismində tanınıb. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilib.

Hazırda ayrı-ayrı vətəndaşlardan yeni müraciətlər daxil olmaqdadır. Müraciətlərdə göstərilən bütün xüsusatların tam, hərtərəfli və obyektiv araşdırılması təmin edilərək, zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası istiqamətində zəruri tədbirlər görülür. Cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Belə görünür ki, "mahmudovçu"ların məhkəmələrində üz-üzə gələcəkləri şəxslərdən biri də vaxtilə həbsə aldıqları məşhur arestant Hacı Məmmədov olacaq.

❑ E.MƏMMƏDƏLİYEV

# Dayanacaq davası edənlər, skamya yazanlar....

## Azərbaycanlılar sivilizasiya ilə ayaqlaşa bilmir?

**Son illər Azərbaycanda, xüsusən də paytaxt Bakıda müşahidə olunan hallardan biri də insanların sivilizasiyanın bəzi nümunələri ilə davranışlarıdır. İnsanlarımız mavi ekrandan Avropa həyat tərzini görür, bəyənir, onun ölkəmizdə olmasını arzulayır, amma... Eyni sivilizasiya örnəyi gözünün önündə olanda onunla adekvat davrana bilmir.**



**Azad İsazadə:** "İstər yaxşıya, istər də pisə tez öyrəşirik; pisə daha tez"

Bunun son örnəklərindən biri "Baku Bus"dır. Dayanacaqdan kənar yerdə saxlamayan avtobus sürücüsünün döyülməsi faktı mətbuatın gündəmini məşğul edən xəbərlərdəndir. Təsəvvür edin ki, insanlarımız daim "ay sürücü, kartof-soğan daşımırsan, asta sür. Tez-tez saxlama" deyə şikayət etdikləri sürücülərdən bu dəfə sivil, normaya uyğun davranış görəndə öz aqressiv reaksiya verirlər. Avtobusların oturacaqlarını bıçaqla kəsənlər, metroya, avtobus divarlarına öz adını, sevdiyinin adı ilə birgə ürək şəklini həkk edənlər də bizimkilərdir.

Bugünlərdə Dənizkənarı Parkda qarşıma çıxan daha bir mənzərə isə sadəcə komediya filmini xatırladırdı. Bakı Şəhər İcra Hakimiyyəti başçısı Hacıbala Abutalıbovun xaricdən gətirdiyini dediyi ekzotik ağacların, xüsusən kaktusların üzərində gənclərimiz öz "dəli sevda"larını, eləcə də izlədikləri saytın adını həkk etmişdilər.

**Sual da budur: niyə sivilizasiya ilə ayaqlaşa bilmirik? Texnikanın son nailiyyətlərinə qarşı niyə belə münasibət sərgiləyirik?**

**Psixoloq Azad İsazadə hesab edir ki, son illər ölkəmizdə sadaladıqlarımızı Avropa standartları və ya sivilizasiya qaydaları adlandırmaq doğru deyil. Onun sözlərinə görə, bütün bunlar Azərbaycan üçün yenilik deyil:** "Mən uşaq olarkən yadımdadır ki, Bakı parklarında skamyalar da vardı, avtobuslar da ancaq dayanacaqlarda saxlayırdı. Dayanacaqdan kənar avtobus saxlaya bilməzdi. Taksilər üçün ancaq bəlli dayanacaq vardı. Səhər 6-7-də şəhərin küçələri yuyulurdu xüsusi maşınlarla. Bu yenilik deyil. Daha öncədən də var idi. Amma hansısa illər ərzində bunu itirmişik. Sonra yeni qaydalara uyğunlaşmışıq. Biz hamımız - istər yaxşıya, istər də pisə tez öyrəşirik. Pisə daha tez. Avtobusu evin yaxınlığında saxlamaq o qədər rahatdır ki, bunu müsbət iş kimi qəbul edir. Bu qayda pozulanda narazılıq edirlər. Kütlə psixologiyasına uyğun, aydın bir şeydir".

**Müsahibimizin fikrincə, bu məsələdə təkcə əhalini günahlandırmaq da düzgün deyil. A.İsazadə hesab edir ki, dayanacaq yerləri incə və dəqiqliklə seçilməlidir:** "Təəssüflə qeyd etməliyəm ki, vaxtilə dayanacaq olan yerləri ləğv ediblər və yerini dəyişiblər. Əhali bundan narahatçılıq hiss edir. Piyada keçidlərlə dayanacaq bir-birinə uyğun gəlmir. İnsanlar xahiş edir ki, keçidə yaxın saxlasınlar. Amma bu o demək deyil ki, qaydanı pozmalıyıq. Qayda pisdir və ya yaxşı, insanlar buna riayət etməlidir. Burda psixoloji amil rol oynayır ki, insanlar çox həssasdırlar. Onlar bilirlər ki, bu gün hansı qaydalar işləyir: rəsmi və ya qeyri-rəsmi. Rəsmi qayda odur ki, avtobusları dayanacaqda saxlamaq lazımdı. Qeyri-rəsmi qayda isə odur ki, sürücü müştərini harda istəsə götürə, harda istəsə düşürə bilər. Bu qayda neçə ildir işləyirdi. Sonuncu qayda neçə ildir ki, işləyirdi. Bu qayda birdən dəyişdi. Camaat hələ öyrəşməyib. Dünən də bu qayda rəsmi vardı, amma işləmirdi tam".

**Psixoloq onu da dedi ki, rəsmi qaydalara uyğunlaşmaq üçün vaxt lazımdır. Müsahibimizin fikrincə, təbliğat və tərbiyə də bu məqamda mühüm rol oynayır:** "Ən əsas nümunədir. Polis əməkdaşı piyadanı düzgün yolu keçməyəndə cəzalandırırsa, o biri qaydanı pozmuş vətəndaşa çatmaq üçün özü o yolu qaydasız keçirsə, pis nümunədir. Birinə olar, o birinə olmaz.

O ki qaldı skamyaya, oturacaqlara avtoqraf qoymağa, bu, yəqin ki, ümumdünya problemidir. Harasa gedəndə Bakı metrosu o birilərdən təmizdir. Dünya metrolarında nəinki oturacaqlar, divarlar da yazı içindədir. Bəlkə cırmırlar, qırmırlar. Amma o da baş verirsə, vaxtında təmir olunmur. Tarixi yeri xarab edib, öz nişanını qoymağın böyük bir nümunəsi tarixdə olub. Napaleon general olanda, Misirə, piramidalar olan yerə gələndə əmr etmişdi ki, Sfinksə top atsınlar. Topun yeri Sfinksin burnunu çartlatmışdı. O sınıq yer tarixi bir nümunəyə çevrildi. O Napalenonun izidir. Amma bu, o demək deyil ki, hamımız haralarasa bu izləri qoymalıyıq. Afinada dağılmış sarayların ətrafında hər il bir neçə ton xırda daş atırlar. Çünki hər turist özü ilə balaca bir daş aparmaq istəyir. Çay qırağından daşları tökürlər ki, insanlar suvenir kimi aparsınlar. Hər turist fikirləşir ki, bircə daş aparıram. Ora milyonlarla turist gəlir və yarısı o daşı aparsa nə baş verər? Psixoloji baxımdan qəbul olunan bir hərəkətdir. Onlara qarşı qadağalar yox, təbliğat lazımdır".

**A.İsazadə sonda onu da qeyd etdi ki, hazırda Bakının əhalisi xeyli dəyişib. İstər sosial, istər maddi, istərsə tərbiyə və mədəniyyət baxımdan bu dəyişiklik özünü göstərir:** "Mən demirəm ki, pisə və ya yaxşıya doğru. Sadəcə, dəyişib. Sayca da dəyişib. 60-cı ildə yüz nəfər o skamyalara öz adını yazırdısa, indi onların 1000-ə yaxın nəvələri var. Say rol oynayır. Sosial proqramlar həyata keçirilməlidir. Bu da bələdiyyələrin üzərinə düşməlidir. Onlar sosial proqramları nəzərdə tutubmu, bilmirəm. Hərəsi öz bələdiyyə zonasını qoruya bilsə, bu, yaxşı ola bilər".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 268 (6296) 2 dekabr 2015

# Turistlərin yoxa çıxdığı İçərişəhər

## Leninin, Stalinin büstü olan qoruqdan reportaj...

**Ölkəmizə gələn əcnəbilərin baş çəkdikləri məkanlardan biri də öz qədimiliyini qoruyub saxlamış və əzəmətli görünüşü ilə hər kəsi heyran edən İçərişəhər və Qız qalasıdır.**

Daşlı, dar küçələrlə getdikcə, yol boyu düzülən kiçik mağazalardakı qədimi xalçalar, antik əşyalar bizi lap qədimlərə "aparırdı". Bizə elə gəlirdi ki, Qoşa qala qapılarından İçərişəhər qoruğuna doğru atdığımız addımla səs küylü müasir həyatdan ayrılıb, keçmişə doğru yol alırıq. Əvvəllər turistlərlə qaynayıb daşan İçərişəhərdə bu dəfə çox az sayda xarici gözə dəyirdi və qəribə bir sükut vardı. Mağazalar, restoranlarda müştəri azlığını müşahidə etdik. Burada çalışanlar isə bunun səbəbini bütün dünyada hökm sürən krizislə, bir çox ölkələrdə terrorların çoxalması ilə əlaqələndirirdilər...

Əzəməti ilə gözümüzü ilk olaraq oxşayan Qız qalasına girişin qiymətləri ilə maraqlandıq. Qız qalasına böyüklər üçün giriş 2 manat, tələbələr üçün 60 qəpik, uşaqlar üçün isə 20 qəpik idi. Buranı ziyarət edənlər arasında türk, rus və ingilis turistlər vardı. Amma yerli əhali də üstünlük təşkil edirdi. Dəfələrlə bərpa işləri aparılmasına baxmayaraq hələ də öz əzəmətli görünüşünü qoruyub saxlayan Qız qalasından çıxarkən rastlaşdığımız türk turistlərə yaxınlaşıb Azərbaycan haqda fikirlərini aldıq. Türkiyədən gələn və Azərbaycanda ilk dəfə olduqlarını deyən **Səlim Taşkın** daha çox Qız qalasına görə Bakıya gəldiyini deyir: "Azərbaycan bizim qardaş ölkəmizdir. Bir çox yerlərdə olsam da, Azərbaycana gəlmək qismət olmamışdı. İlk dəfədir ki, Bakıya gəlmişəm. İçərişəhər, Qız qalası məni heyran etdi. Türkiyədə də Qız qalası var. Amma buradakı tamamilə fərqlidir. Həyat yoldaşım və mən buranı çox bəyəndik. Burada çox gözəl qədimi xalçalar var. Amma qiymətləri və sertifikatı baha olduğu üçün təəssüf ki, ala bilmədik".









Yol boyu mağazalara düzülən mağazalara yaşı 30-1800 manat arası olan xalçalar vardı. Bu xalçaların qiymətləri toxunma yerinə, yaşına görə bir-birindən fərqlənir. Qədimi xalçalarla bəzənən mağazalardan birinə daxil olub qiymətlər, alıcılarla maraqlandıq. Satıcı dedi ki, Şirvan bölgəsində toxunan və yaşı 40-50 arası olan xalçaların qiyməti 130, 80 yaşı olan Quba xalçasının qiyməti 600 manatadır. 100-150 yaşı olan Qarabağ xalçasının qiyməti isə daha baha idi. Sumax adlanan xalçaların 6 kvadratı sertifikatı ilə birlikdə 700 manatadır. Sertifikatın qiyməti 50 manatdır. Ölkədən çıxara bilmək üçün bu sertifikatı almaq vacibdir. Alverimiz indi çox zəifdir. İpək xalçaların toxunması Azərbaycanda demək olar ki, azalıb. Bu, əsasən Şəkidə toxunurdu. Amma artıq 1-2 ədəd toxunur, ya yox. Çünki onu toxumaq, satmaq baha olduğu üçün Azərbaycana sərf etmir. Azərbaycan ipəyinin bir kvadratı min manatdır".

**Satıcıdan o zaman mağazada yer alan ipək xalçaların hara məxsus olduğunu soruşduq. Satıcı bu xalçaların "kitayski" olduğunu bildirdi:** "Çində toxunan ipək xalçaları satırıq. Bu, Azərbaycanda toxunan ipək xalçadan fərqlənmir. Çində işçi qüvvəsi və ipək ucuz olduğuna görə orada toxunur və Azərbaycana gətirilir. Çində toxunan xalçaların qiyməti 300-600 manat arasındadır. Əslində bu işdə elə də qazanc yoxdur. Sadəcə olaraq, bu bir xəstəlik kimi bir şeydir".

**Digər mağazaya daxil oluruq. Mağaza bizə sovet illərini xatırladırdı. Çünki burada yer alan hər bir əşya sovet dönəmindən qalma idi. Müharibə illərində verilən medallar, rus əsgərlərinə məxsus papaqlar, Lenin, Stalinin büstü, üzərində Leninin şəkli toxunan xalçalar və sairə. Satıcıdan sovet dönəmindən qalma bu əşyaları necə əldə etdiyini və qiymətlərini soruşduq:** "Özüm kimi, satdıqlarım da sovetdən qalıb. Medalları gətirib adətən gənclər ucuz qiymətə satırlar. Babalarından qalma olur. Bu medalların alıcıları yoxdur. Hərdən yaşlı kişilər, bir də bəzi rus turistlərdən alanlar olur".

**Satıcı Leninin bürüncdən hazırlanan və 40 manata satılan kiçik heykəlinin də alıcısının olmadığını dedi:** "Alan olsa 30 manata da verərəm. Bu daha çox avropalıların diqqətini çəkir. Azərbaycanlılardan bizə irad tuturlar ki, bunun əlindən bezar olmuşduq, at getsin, onun heykəlini satma".

Leninin görünüşü həkk olunmuş və əllə toxunan xalçanın qiyməti isə 120 və 300 manata idi.

**Daha çox təsbeh, Bakının görünüşü əks olunan suvenirlər satan Cəmil Quliyev isə alverin olmadığından gileyləndi:** "Turistlər demək olar ki, yoxdur. Əvvəllər bizim alverimiz çox olurdu. İndi isə səhərdən dayanmışam, cəmi iki maqnit suvenir sata bilmişəm və 2 manat qazancım olub. Rus turistlər demək olar ki, yoxdur. Burada olan suvenirlərin qiyməti 1-10 manat arasındadır. Rus əsgərlərinə məxsus papağı özüm gedib Moskvadan almışam. Bu yaxında gəlmişəm. Təsəvvür edin ki, orada da Azərbaycanda baş verənləri bilirlər. Məndən soruşurdular ki, Nardaranda nələr baş verib".

İçərişəhərdə yer alan restoranlar və çay evlərinin əməkdaşları da müştəri azlığından əziyyət çəkdiklərini deyirdilər. Hətta elə çay evi vardı ki, müştəri olmadığı üçün işçiləri çöldə oturub nərd oynayırdılar. Bu qədim yeri tərk edərkən bir sürücünün giriş puluna görə mübahisə etdiyini gördük. Xatırladaq ki, İçərişəhərə maşınla giriş 2 manatdır. Maşını neçə dəqiqə və saat saxlamaqdan asılı olmayaraq 2 manatı ödəmək şərtdir.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Avtobus sürücülərinə qarşı sərt qaydalar qüvvəyə mindi



## Ekspert: "Qanunlara riayət edilərsə, müsbət dəyişikliklər çox olacaq.."

**Dünəndən etibarən ictimai nəqliyyatdan istifadə qaydalarının pozulmasına görə məsuliyyəti sərtləşdirən qaydalar qüvvəyə minib. Milli Məclisin 20 oktyabr tarixdə qəbul etdiyi İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə dəyişikliklər həm avtobus sahiblərinin (şirkətlərin, onların vəzifəli şəxslərinin, fərdi sahibkarların), həm də avtobus sürücülərinin məsuliyyətini xeyli sərtləşdirir.**

**Ekspert Ərşad Hüseynov** bildirdi ki, qanunlara riayət edilərsə, müsbət dəyişikliklər çox olacaq: "Edilən dəyişikliklərdə əsas məsələ ictimai nəqliyyata aiddir. Qanun qəbul edilə bilər, ancaq əsas məsələ buna necə əməl etməkdən asılıdır. Obyektiv yanaşılsa, heç kimə güzəşt edilməsə, fərq qoyulmadan qaydanı pozan hər bir kəs məsuliyyətə cəlb olunarsa, o zaman məhz bu sahədə radikal dəyişiklik olacaq. Reydlər keçirilir, baxırıq ki, hər on sürücüdən 3-4-ü sürücülük hüququ olmayan şəxslər olur. Yaxud da reyd zamanı məlum olur ki, içərisində 10-dan çox insan olan avtobusun sürücüsü narkomandır. Hesab edirəm ki, qanunun sərtləşdirilməsi dövlət rəhbərliyinin sərnişindaşıma ilə məşğul olan şirkətlərə və digər məsul şəxslərə bir mesajıdır ki, bundan sonra başqa cür olacaq. Dəyişikliyin 90 faizi ictimai nəqliyyata aiddir".

**Yeni dəyişikliklər isə aşağıdakılardır:**

**1.** Bundan sonra sərnişin avtobuslarının və yük daşımalarını yerinə yetirən yük avtomobillərinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının, həmin avtonəqliyyat vasitələrinin sürücülərinin reysqabağı tibbi müayinəsinin təşkil edilməməsinə görə şirkətlər 2000 manatdan 2500 manatadək miqdarda, fərdi sahibkarlar və ya şirkətin məsul şəxsləri isə 500 manatdan 800 manatadək miqdarda cərimə ediləcək. Əvvəllər yalnız tibbi müayinə təşkil etməməyə görə müvafiq olaraq 150-200 və 40-50 manat cərimə nəzərdə tutulurdu.

**2.** Avtobusu idarə etmək hüququ olmadan onu sərnişin daşımaqla idarə edən şəxs birbaşa olara 15 gündən 1 ayadək müddətə inzibati həbs olunacaq *(əvvəllər buna görə 100 manat cərimə var idi).*

**3.** Avtobusu idarə etmək hüququ olan şəxs tərəfindən onu sərxoş vəziyyətdə sərnişin daşımaqla idarə edən şəxs nəqliyyat vasitələrini idarə etmə hüququ iki il müddətinə məhdudlaşdırılmaqla 15 gündən 1 ayadək müddətə inzibati həbs olunacaq *(əvvəllər buna görə 300 manat cərimə və ya 6 aydan 1 ilədək müddətə nəqliyyat vasitələrini idarə etmə hüququnun məhdudlaşdırılması tətbiq olunurdu).*

**4.** Avtobusun sərnişin daşınması üçün onu idarə etmək hüququ olmayan şəxsə verilməsinə görə fiziki şəxslər *(avtobusun rəsmi sürücüləri)* 200 manat miqdarında, vəzifəli şəxslər *(fərdi sahibkarlar və və ya şirkətin məsul şəxsləri)* 500 manat miqdarında, hüquqi şəxslər 3000 manat miqdarında cərimə ediləcək *(əvvəllər bunun cəriməsi müvafiq olaraq 60, 200 və 2000 manat idi).*

**5.** Avtobusun sərnişin daşınması üçün sərxoş vəziyyətdə olan, yaxud həm sərxoş olan, həm də onu idarə etmək hüququ olmayan şəxsə verilməsinə görə də cərimə məbləği bir neçə dəfə artır.

**6.** Avtobusun sərnişin daşınması üçün onu idarə etmək hüququ olmayan və ya sərxoş vəziyyətdə olan, yaxud həm sərxoş olan, həm də onu idarə etmək hüququ olmayan şəxsə verilməsindən sonra baş vermiş qəza nəticəsində zərərçəkənə fiziki zərər və ya maddi ziyan dəydikdə avtobus sahibi olan şirkətə və ya fərdi sahibkara, yaxud şirkətin məsul şəxsi üçün külli miqdarda cərimə müəyyən olunur. Məsələn, avtobusun sərnişin daşınması üçün onu idarə etmək hüququ olmayan və sərxoş olan şəxsə verilməsindən sonra belə qəza baş verərsə, avtobusun sahibi olan fərdi sahibkar 2500 manat miqdarında cərimə ediləcək, yaxud 1 aydan 2 ayadək müddətə inzibati həbs olunacaq, hüquqi şəxslər isə 15000 manat miqdarında cərimə ediləcək.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 268 (6296) 2 dekabr 2015

# Bəzi məktəblərdə hələ də şagirdlər soyuqdan donur

## Bakı Şəhər Təhsil İdarəsindən bildiriblər ki, bəzi məktəblər hələ də istiliksiz qalıb

**Qış mövsüm başladığı gündən bəri paytaxtda və respublikanın digər ərazilərdə mənzillərin, məktəb və uşaq bağçalarının, xəstəxanaların istiliklə təminatında problem yaranmışdı. Səbəb isə "Azəristiliktəchizat" ASC-nin "Azəriqaz" İB-ə olan borcu idi. Noyabrın 30-dan başlayaraq bu iki qurum arasında olan problemlər həllini tapdı, razılaşma əldə edildi və qazanxanalar qazla təmin edildi.**

Qeyd edək ki, "Azəristiliktəchizat" ASC-nin "Azəriqaz" İB-ə borcu 40 milyon manatı keçib. Həmin borcun 8 milyon manatı təkcə 2015-ci ildə yaranıb. Ümumiyyətlə, son 5 il ərzində "Azəristiliktəchizat" hər il orta hesabla istifadə etdiyi yanacağın təqribən 30-35 faizinin pulunu ödəyib. Qurum bunu tariflərin ucuz olması və xərcləri qarşılamaması ilə əsaslandırır. Halbuki hər il dövlət büdcəsindən bu quruma 35-40 milyon manat vəsait ayrılıb.

Qazanxanalar qazla təmin edilsə də, bəzi mənzillərdən hələ də şikayət gəlməkdədir.

**"Azəristiliktəchizat" ASC-nin abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyev "Yeni Müsavat"a açıqlamasında problemin bütövlükdə həllini tapdığını bildirdi:** "Bütün qazanxanalarımızı ötən həftənin cümə-şənbə günlərində işə salmışıq. İndi artıq yaranan problemlər mənzildaxili istilik sistemi ilə bağlıdır. Bizim qaynar xətlərimizə də çoxlu sayda zənglər gəlir. Bu zənglərin əksəriyyəti sırf mənzildaxili problemlərlə bağlı müraciətlərdir. Bu gün mən iki saat ərzində çağrı mərkəzində oturdum və zənglərə özüm cavab verdim. Abonent var ki, mənzilinin iki otağında istilik var, birində yoxdur. Ancaq bütünlükdə bir binanın bütün mənzillərinin istiliklə təminatında problem yaşanan yer yoxdur. Problem ayrı-ayrı mənzillərlə bağlıdır. Elə mənzil var ki, istilik xəttinin havası buraxılmalıdır. Fərdi problem yaşayanlar bizim çağrı mərkəzinə zəng edirlər. Bəzilərində vətəndaş bacarmadığı üçün işçilərimiz gedib problemi yoluna qoyurlar. "956" saylı çağrı mərkəzi 24 saat aktiv rejimdə işləyir.



"Azəristiliktəchizat"dan istilik alan məktəblərin də istilik problemi həll olunub. Mən Bakı Şəhər Təhsil İdarəsi ilə də əlaqə saxladım. Hələ ki bizə problemlə bağlı hər hansı müraciət daxil olmayıb.

Əvvəlki mövsümlərdə sistemlə bağlı problem yaşayırdıq. Bu mövsümdə qaz gec verildiyi üçün biz oyuq suyu dövriyyəyə buraxmışdıq. Harada axıntı və sair vardısa aradan qaldırılmışdı, hidravlik təzyiqi tənzimləmişdik. Bizdə bu dəfə daha asan oldu, indi sadəcə suyu qızdırmaqla məşğuluq.

"Azəristiliktəchizat" ASC olaraq biz hökumətə müraciət etmişik. Borc məsələsinə hökumətdə baxılır. Artıq qazanxanaların qaz təminatı bərpa edilib. İki qurum arasındakı məsələyə isə özümüz aydınlıq gətirəcəyik və çalışacağıq ki, vətəndaşlar bundan əziyyət çəkməsin".

**Bakı Şəhər Təhsil İdarəsindən "Yeni Müsavat"ın sorğusuna cavab olaraq bildirdilər ki, bəzi məktəblər hələ də istiliksiz qalıb:** ""Azəristilik"ASC-nin Azəriqaz İB-ə ödəniş borcu olduğundan "Azəristilik" ASC-yə verilən qaz təchizatı dayandırılıb. Bu səbəbdən mərkəzləşmiş qazanxanadan təmin olunan məktəblərdə istiliklə bağlı problemlər yaşanıb. Bununla bağlı mütəmadi olaraq monitorinq keçirilir və bu gündən bir çox məktəblərin istilik sistemi işə düşüb və hazırda 11 məktəbdə istilik yoxdur. Fərdi qazanxanası olan məktəblərdə isə istiliklə bağlı problem yaşanmayıb və bu məktəblər noyabrın 15-dən istiliklə təmin olunub".

**"Azəriqaz" İB-in mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev isə bildirdi ki, respublikanın bütün ərazisində əhali tələbata uyğun təbii qazla təmin olunur, qazanxanalar da o cümlədən:** "Bütün qazanxanaların qazla təminatı bərpa edilib. Hər hansı məhdudiyyət yoxdur. O ki qaldı borcların ödənilməsinə, bir qismi ödənilib, bir qisminin də gələcəkdə ödənilməsi üçün danışıqlar aparılıb. Borcla bağlı danışıqlar gedib, ödəniş qrafiki hazırlanıb. Biz borcu az olan qazanxanaları daha öncə təmin etmişdik, artıq borclu qazanxanalar da işə salınıb".

**İqtisadçı ekspert Natiq Cəfərli isə bu problemlərin köklü şəkildə həll edilməsi üçün özəl qazanxanaların yaradılmasını və xidmətin dövlətdən özələ keçməsini təklif edir:** "Dövlətin əlində olan iqtisadi qurumların hamısında vəziyyət bu cürdür. Bu da onu sübut edir ki, dövlətə məxsus qurumlar iqtisadi idarəetməni bacarmır. Bu qurumlarda gəlirlərin və xərclərin idarə olunmasında hər zaman problemlər yaranır, onların rentabelliyi çox aşağı olur. Bu da həmin qurumların nəzarətsiz olduğunu, "dövlətindirsə heç kimindir" prinsipi ilə işlədiyini göstərir. Belə olduğu halda, korrupsiya, xərclərin şişirdilməsi və sair bu kimi hallara yol verilir.

Özəl qazanxanaların yaradılması daha yaxşı olardı. Dövlətin harada iqtisadiyyatdan çəkilmə ehtimalı varsa, bunu özəl şirkətlərə versə daha yaxşı olar. Özəl qurumlar yaradıla və onların rəqabətli mühitdə fəaliyyətinə şərait yaradıla bilər. Bu, dövlətin özünə də xeyir verər və izafi xərclərdən qurtular. Vətəndaşlar da daha keyfiyyətli xidmət alar. Həm də dövlət həmin şirkətlərdən vergi ala bilər. İndiki halda həm dövlət dotasiya verir, həm borclar yaranır və bunlar da sonradan dövlətin üstündə qalır, həm də vətəndaşlar əziyyət çəkir".

❑ Nərgiz LİFTİYEVA


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


# Tələbə qız dəm qazından öldü

**Bakıda ölümlə nəticələnən bədbəxt hadisə baş verib. 1995-ci ildə Kürdəmirdə anadan olmuş Abuzərova İlahə Gülü qızı Xətai rayonu Şıxlınski küçəsində yerləşən mənzildə dəm qazından boğulub. Müvəqqəti olaraq qohumunun evində yaşayan 20 yaşlı qız mənzilin hamam otağında qazdan zəhərlənib və onun həyatını xilas etmək mümkün olmayıb.**

Qeyd edək ki, bədbəxt hadisə nəticəsində ölən gənc qız Bakı Dövlət Universitetinin geologiya fakültəsinin III kurs tələbəsi olub. Faktla bağlı araşdırma aparılır (lent.az).


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- *Çayek balı*
- *Şan balı*
- *Karkıra balı və s.*

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71

## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99




# Mənzil bazarında durğunluq yanvarda da davam edəcək

## Əksər ekspertlər ev almağı məsləhət görmür, tələsən alıcı uduza bilər...

**Ölkənin mənzil və torpaq bazarında durğunluğun ilin sonunadək davam edəcəyi bildirilir. Hətta gələn ilin əvvəllərində də vəziyyət ucuzlaşmaya doğru gedəcək. Ekspertlər bildirirlər ki, neftin qiymətlərinin daşınmaz əmlak bazarına təsiri dolayıdır. Qiymətlərin artması üçün isə makroiqtisadi şərait yaxşılaşmalıdır. Neftin qiymətləri bazara tədricən təsir etməyə başlayır.**



**Ekspert Rəşad Əliyevin** sözlərinə görə, qiymətlər devalvasiyadan sonra enməyə başlamayıb: “Əslində qiymət enməsi devalvasiyadan qabaq başlayıb, 2014-cü ilin payızından. Fevralda baş verən devalvasiyaya qədər qiymətlər artıq 6 ay idi ki, düşürdü. Qiymət enməsinin nəzərə çarpmamasının əsas səbəbi ucuz mənzillərin qiymətinin daha az düşməsi olub. Devalvasiyadan sonra qiymətlər müvəqqəti olaraq manat ifadəsində artdı, dollar ifadəsində isə azaldı. Bir müddət sonra qiymətlər hər iki valyutada yenə enməyə başladı. Ancaq buna baxmayaraq, bir sıra mənzillərin qiyməti manat ifadəsində devalvasiyadan öncəki qiymətlər kimi, ancaq 2014-cü ilin pik səviyyəsindən aşağıdır”.

**Ekspertin sözlərinə görə, neftin qiyməti qalxan kimi qiymətlərin qalxacağı kimi fikirlər yanlışdır:** “Neftin qiymətlərinin daşınmaz əmlak bazarına təsiri dolayıdır. Sözsüz ki, neftin qiyməti makroiqtisadi şəraitə təsir edir ki, bu da öz növbəsində daşınmaz əmlak bazarına təsir edir. 2008-ci il böhranında daşınmaz əmlak bazarında 2009-cu ilin sonunda durğunluq davam edəndə neftin qiyməti artıq 70 dollardan yuxarı idi. Həmin dövrdə ancaq mənzil bazarında vəziyyət bir qədər normal idi, bu isə həmin dövrdən öncə başlayan ipoteka kreditləşməsi ilə əlaqədar idi. Qiymətlərin artması üçün makroiqtisadi şərait yaxşılaşmalıdır və neftin qiymətləri tədricən təsir etməyə başlayır”.

**R.Əliyevin sözlərinə görə, ev bazarındakı ucuzlaşma kirayə bazarına çox da təsir etməyib:** “Mövcud şəraitdə kirayə haqqı 2 istiqamət üzrə nəzərdən keçirilir. Birincisi mövcud kirayə bazarı, ikincisi isə mövcud kirayə müqavilələri üzrə. İkinci istiqamət üzrə kirayə haqları orta hesabla çox cüzi düşüb. Kirayə bazarı üzrə enmə göz qabağındadır. Ancaq bazarın çökməsi real rəqəmlərlə təsdiq olunmur və bunun üçün hələ vaxt tələb olunur”.

**Ekspert qeyd edib ki, “Qiymət enibsə, ev almağın əsl vaxtıdır”,- kimi fikirlər də yanlışdır:** “Daşınmaz əmlak qeyri-likvid əmlakdır və o, neft, qızıl və ya digər likvid mal deyil ki, ticarət terminalı qarşısında onun enmə faizinə nəzər yetirəsiniz. Daşınmaz əmlak bazarında standart məhsul mövcud deyil. Qiymət enməsi haqqında mövcud olan bütün məlumatlar şərtidir və hamısı ortalama nəticələrdir. Ev almaq istəyənlər üçün həmin məlumatların praktiki əhəmiyyəti yoxdur və bu məlumatlar bazarda ancaq ab-havanı müəyyən etməyə kömək edir. Əmlak almaq qərarı isə ancaq alıcı tərəfindən aparılan təhlil nəticəsində mümkündür. Hazırda elə ev almaq mümkündür ki, gələcəkdə bazarda qiymətlər ensə belə, onun qiyməti qalacaq. Ancaq elə ev də almaq olar ki, bazarda qiymətlər artsa da, onun qiyməti artmayacaq. Təhlil aparmayan alıcı həmişə uduzur”.

Qeyd edək ki, qiymət ucuzlaşması həm təkrar, həm də ilkin mənzil bazarında müşahidə olunur. Bəzi ekspertlər bildirirlər ki, neftin ucuzlaşması, həmçinin təkrar devalvasiya ehtimalları da qiymətlərə təsir göstərməkdədir. Yaxın üç ay ərzində qiymətlərin artması gözlənilmir. Əksinə, qiymətlərin daha da azalması gözlənilir.

**Ekspert Nüsrət İbrahimovun sözlərinə görə, bu ilin oktyabrında təkrar mənzil bazarında 3,1 faiz ucuzlaşma olub. İlkin mənzil bazarında isə bu rəqəm 1,1 faizdir:** “Ümumən 1,2 faiz qiymətlər düşüb. İlin əvvəli ilə müqayisədə ümumi mənzil bazarında 26 faiz ucuzlaşma var. Qiymət azalmasının əsas səbəbi xarici faktorlardır, regionda baş verən hadisələrdir. Dünya maliyyə bazarlarında baş verən hadisələr qiymətlərin ucuzlaşmasına təsir göstərir. Nəticəsi kimi neftin qiymətinin aşağı düşməsi və bunun Azərbaycana təsiri də mühüm rol oynayır. İkinci səbəb də insanların neqativ gözləntiləridir. İnsanlar hələ ki risk etmirlər əllərində olan vəsaiti mənzil bazarına yönəltsinlər. Yaxın üç ay ərzində qiymətin artması ehtimalı yoxdur. Gələn il yanvarın sonuna qədər bahalaşma olmayacaq”.

**Ekspert Samir Əliyevin** sözlərinə görə isə hazırda mənzil bazarında süstlük müşahidə edilir. Bu, bir tərəfdən, dünya bazarında neftin ucuzlaşması ilə, digər tərəfdən, Rusiya amili ilə bağlıdır. Rusiyadan ölkəmizə kifayət qədər maliyyə vəsaiti gəldiyi zaman həmin vəsait bazarda aktivliyi kifayət qədər saxlayırdı. Birinci devalvasiya baş verəndə mənzil bazarındakı qiymətlər buna uyğunlaşmağa başladı. Dollar ifadəsində mənzillərin ucuzlaşması baş verdi, manat ifadəsində isə əksinə, bahalaşdı. Ancaq bu, ilkin dövrdəki reaksiya idi. Sonrakı dövrdə manatla da mənzillər ucuzlaşmağa başladı. İndi daha çox köhnə evlərin qiymətində azalmalar baş verir.

Ekspertlər qeyd edirlər ki, ümumən ötən ilin mart ayından Rusiyada rublun məzənnəsinin yüksəlməsi, Ukrayna hadisələri və ətraf regionda, dünya siyasi səhnəsində baş verən hadisələrin mənzil bazarına təsiri qaçılmazdır. Bu, tək bizim ölkədə deyil, regionda bu vəziyyət müşahidə edilir. Biz də bu bazarın tərkib hissəsi kimi qiymət azalmasını hiss edirik. Bildirilir ki, mənzilə tələbat da azalıb ki, burada da psixoloji faktor rol oynayır. Çünki insanların dünya ilə əlaqəsi var, informasiya vasitələrini izləyirlər, məlumatlıdırlar, bu da öz psixoloji təsirini göstərir.

**Ekspertlərin fikrincə, real alıcıların böyük bir hissəsi bazarı tərk ediblər. Səbəb isə əllərindəki pulu qoruyub saxlamaqdır. Hər zaman bazarda canlama yaradan və qiymətləri artıranlar daha çox investorlar idi. Artıq onlar da bazarı tərk ediblər...**

❑ **Röya RƏFİYEVA**



# Çin valyutası güclənir

## BVF-nin yuanı səbətə daxil etməsi digər valyutaların da payını azaldıb

**Beynəlxalq Valyuta Fondu Çin valyutası olan yuanı özünün SDR (xüsusi borclanma hüququ) səbətinə daxil edib. 2016-cı il oktyabr ayının 1-dən etibarən yuan səbətə daxil olan 5 valyutadan biri olacaq. Hazırda səbət ABŞ dolları, avro, funt sterlinq və yen olmaqla, 4 valyutadan ibarətdir. Ekspert Samir Əliyevin sözlərinə görə, Çin valyutası səbətdə 3-cü ən böyük paya, 10,92 faizlik paya malik olacaq. Digər valyutaların payı isə belədir: ABŞ dolları- 41,73 faiz, avro- 30,93 faiz, yen- 8,33 faiz, funt sterlinq- 8,09 faiz. “Yuanın səbətə daxil edilməsi daha çox avroya zərbə vurub. Avropa valyutasının payı 7 faiz bəndi azaldılıb. Digər valyutaların da payında azalma olub”,- deyə o bildirib.**

Ekspertin sözlərinə görə, BVF rəhbəri bu qərarı Çin iqtisadiyyatının son illər dünya maliyyə sisteminə inteqrasiya ilə əlaqələndirib: “Çin hökuməti də bunun üçün çox çalışdı. Məsələn, xarici mərkəzi banklar üçün daxili valyuta və borc bazarını açdı. Bütün üstünlükərə rəğmən yuan hələ ki ehtiyat valyuta, borc bazarında borclanma vasitəsi qismində Avstraliya və Kanada dollarına uduzur. Dünya valyuta ehtiyatlarında payı 1,1 faiz, beynəlxalq ödənişlərdə 2,8 faizdir”.

**S.Əliyev qeyd edib ki, bəzi analitiklər Çin aktivlərinə xarici investisiyaların artacağını proqnozlaşdırır:** “Digərləri hökumətin maliyyə sisteminin ciddi islahata ehtiyacı olduğunu vurğulayır və bunsuz fayda görmürlər. Yuan səbətdə fiksə olunmuş məzənnəyə malik yeganə valyuta olacaq. Yuan həm də sərbəst dönərli valyuta deyil. Hökumət 2020-ci ildən tez məzənnəni sərbəstləşdirmək niyyətində deyil. Yuanın BVF-nin səbətinə daxil edilməsi Çinə üstünlüklər verməklə yanaşı, müəyyən çətinliklər yaradacaq. Əvvəla, Çin valyutasının dünyada prestiji daha da artacaq. İkincisi, ölkəyə kapital axını stimullaşacaq. Müxtəlif hesablamalara görə, 2020-ci ilə kimi kapital axını 600 milyard dollar həcmində ola bilər. Üçüncüsü, yuana inam daxili borclanma imkanlarını artıracaq. Ancaq bununla yanaşı, Çin hökuməti üzərinə böyük məsuliyyət düşür. Maliyyə sektorunda liberallaşdırma aparılmalıdır və bazar xarici investorların üzünə açılmalıdır. Bundan başqa, kapital axını üzərində nəzarəti azaltmalı, valyuta intervensiyasını məhdudaşdırmalı, yuanın məzənnəsi bazar alətləri vasitəsilə tənzimlənməlidir. Əks halda, yuanın ehtiyat valyuta statusu ciddi nəticələr verməyəcək. Digər tərəfdən, yuana tələbatın artması onun möhkəmlənməsinə gətirib çıxara bilər ki, bu da Çin hökumətinin planlarına daxil deyil”.

❑ **RÖYA**




# Yeni ildə 5 gün iş olmayacaq

**31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni illə əlaqədar Azərbaycanda 5 gün qeyri-iş günü olacaq.**

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü, 1-2 yanvar Yeni illə bağlı bayram günləri elan edilib.

2016-cı il, 2 yanvar tarixi şənbəyə təsadüf etdiyindən Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yerləri dəyişdiriləcək, 4 yanvar qeyri-iş günü olacaq.

Beləliklə, Yeni ildə Azərbaycanda ardıcıl olaraq 5 gün - 31 dekabr, 1, 2, 3, 4 yanvar qeyri-iş günüdür (APA).

YENİ MÜSAVAT

Son səhifə

N 268 (6296) 2 dekabr 2015



# Zeytunun inanılmaz faydaları

Zeytun çox zəngin kimyəvi tərkibə malikdir. Onun tərkibində əvəzolunmaz Omeqa-6 yağlı turşular, orqanik turşular, zülallar, qida lifləri, C, PP, E, A, K, B qrupu vitaminləri, beta-karotin, fosfor, dəmir, kalium, maqnezium, mis, kalsium, sink və s. minerallar var. Omeqa-6 yağlı turşular ürək-damar və beyin üçün olduqca xeyirlidir. Bu maddələr orqanizmdə lazımsız xolesterinin səviyyəsini aşağı salır, damarları tənzimləyir. Ateroskleroz isə infarkt, insult kimi ağır pozulmaların inkişafına səbəb olur.

Zeytun və zeytun yağı insanın mədə-bağırsaq sistemi üçün də çox faydalıdır. Zeytun qaraciyərin və öd kisəsinin fəaliyyətini stimullaşdırır, ödqovucu təsir edir, öd kisəsində durğunluğun qarşısını alır. Zeytun yağı və zeytun qəbizlikdən əziyyət çəkən insanlara da yaxşı kömək edə bilər. Zeytun kalorili məhsuldur. O, insana əlavə enerji verir, insanı daha gümrah edir, iş qabiliyyətini artırır. Zeytun E vitamini ilə zəngindir. Bu vitamin çox güclü antioksidantdır. Antioksidantlar orqanizmdə gedən qocalma proseslərini ləngidir, hüceyrələri bərpa edir, orqanizmi xərçəng xəstəliklərindən qoruyur. Ümumilikdə belə hesab olunur ki, zeytun xərçəngin profilaktikası üçün ən yaxşı vasitələrdən biridir.

# Ölməmək üçün 114 kilo arıqladı

İngiltərədə yaşayan və 247 kilo çəkisi olan Keit Klement uzun illər içki içərək pizza yeyib. Çox kök olduğu üçün dostları onu ayıya bənzədirmiş. Lakin bir müddət əvvəl o, həkimə gedib və şəkər xəstəsi olduğunu, 5 ilə öləcəyini öyrənib. Keit "hər şeyi yeyə biləcəyimi düşünürdüm. Hər həftə sonu 25 qədəh içki içə bilirdim. Hər həftə pizza yeməyə gedirdim. Gənc olarkən insan nə olacağı haqda düşünmür. Hər şey yeyib içsə də narahat olmur" - deyib. Ancaq təsadüfən xəstəxanaya düşdükdən sonra həyat tərzini dəyişməzsə, öləcəyini öyrənib. Həmin gündən sonra onun həyatı



dəyişib. Qısa müddət ərzində 57 kilo arıqladıqdan sonra pəhrizə başlayıb və boksla məşğul olub. Hazıra çörək də yemir və çəkisi 127 kiloya düşüb.

# Dünyanın ən təhlükəli gölü

Dünyanın müxtəlif yerlərində yerləşən qeyri-adi təbiət mənzərələri haqqında məlumat vermişik. Qeyri-adi göllər, gözəlliyi ilə turistləri cəlb edən adalar, qeyri-adi restoranlar və s. Bu qeyri-adi hadisələr və təbiət mənzərələri hər kəsin marağına səbəb olur.

Tanzaniyanın şimalında yerləşən bu qeyri-adi rəngli, həm də təhlükəli gölün dərinliyi 3 metrə yaxındır. Bu gölün adı da natron mineralının adından əmələ gəlib. Mövsümdən asılı olaraq gölün üzəri Şərqi Afrika dərəsindən gələn vulkanik küllə birgə mineral duzlarla örtülə bilər. Gölün qələviliyi 9-10,5 pH arasında dəyişə bilir, onun temperaturu isə 60 °C-ə çatır. Bu səbəbdən də onun üzərinə düşən hər bir canlı (xüsusən də quşlar) dərhal həlak olur. Bu zaman onların qalıqları mineral maddələrlə örtülür və daşlaşmağa başlayır. Suyun tərkibi və üzəri təmiz olduqda isə burada cəmi bir neçə növ balıq yaşayır. Göldə qələvilik səviyyəsi artdıqda isə burada bir neçə növ bakteriyalar fəallaşmağa başlayır və onların həyat fəaliyyəti gölü al qırmızı rəngə boyayır.





# 40 il sonra həbsdən çıxdı, şoka düşdü

40 il həbsdə qaldıqdan sonra azadlığa sıxan amerikalı Otis Johonson həyatının ən böyük şokunu yaşayıb. Times Meydanına gedən Johonsonun ilk düşündüyü şey "niyə hər kəs öz-özünə danışır" deyə düşünüb.

O.Johonson bir polis məmurunu öldürməyə təşəbbüs etdiyi üçün 44 il müddətinə azadlıqdan məhrum edilib. 1975-ci ildə həbsə girərkən Johonsonun 25 yaşı olub. Bir neçə gün əvvəl isə 69 yaşını tamamlayıb və 40 il həbsdə yatdıqdan sonra azadlığa çıxıb. Johonson həbsdən çıxdığı zaman qarşılaşdığı dünya onu şoka salıb. "İnsanlar qulaqlarına qulaqlıq taxıb musiqi dinləyir. Hər biri agentə oxşayır. Piyada gedərkən, yolda gəzərkən ətraflarına baxmırlar. Qəribə işıqlı mağazalar insanı təəccübləndirir. Elə bil yeni bir dünyaya gəlmişəm",- deyə o, müsahibəsində bildirib.




**QOÇ** - Ulduzlar günün birinci yarısında qeyri-adi hansısa addımı atmamağı tövsiyə edir. Əks təqdirdə, uğurlardan uzaq düşəcəksiniz. Sonrakı saatlarda isə sürprizlə rastlaşma ehtimalınız var.

**BUĞA** - Ulduzların düzümü enerjinizi daha çox fəaliyyət istiqamətinə yönəltməyi tövsiyə edir. Qarşılıqlı münasibətlərdə isə bacardığınız qədər ehtiyatlı olmalısınız. Çılğınlıq etməyin.

**ƏKİZLƏR** - Hədsiz dərəcədə uğurlu gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətinə yetişəcəksiniz. Maraqlı təkliflər, şəxsi büdcədə artım ovqatınızı xoş edəcək. Amma ən xırda detalları belə nəzərdən qaçırmayın.

**XƏRÇƏNG** - Bəxtinizdə çox düşərli bir təqvim dayanıb. Odur ki, nəyəsə cəhd edərkən hər an Ulu Tanrını başınız üzərində hiss edin. Yalnız bu halda özünüzü xoşbəxt hiss edəcəksiniz.

**ŞİR** - İxtiyarınızda olan bu təqvimdə sizin üçün günün birinci yarısı daha uğurlu olacaq. Çoxdan gözlədiyiniz bir təklifi ala bilərsiniz. Təxminən saat 14-dən sonra isə ayıq-sayıqlığınızı artırın.

**QIZ** - Perspektivli sövdələşmələr aparmaq istəyirsinizsə, vaxtı fövtə verməyin. Saat 11-dən başlayaraq paralel şəkildə aktivlik göstərin. Qərarlarınızda qəti olsanız, heç vaxt uduzmayacaqsınız.

**TƏRƏZİ** - Maddi problemlərinizin qabarmasına baxmayaraq, əsas gücünüzü sevgi amilinə yönəldin. Nəzərə alın ki, sizə ehtiyac duyanlar xoş bir sözünüzlə də kifayətlənə bilərlər. Səfərə isə çıxmayın.

**ƏQRƏB** - Yaxşı olar ki, əsas işlərə saat 12-dən sonra başlayasınız. Çünki əvvəlki ərəfə bir qədər qalmaqallı keçə bilər. Bu gün nüfuzlu və dəyərli insanlarla görüş keçirmək sizə səmərə verəcək.

**OXATAN** - Qarşılıqlı ünsiyyətdə olduğunuz hər kəslə ciddi davranın. Enerjinizi dedi-qodu və ya cəfəng söhbətlərə itirməyin. Doğma ünvanlara gedib istirahət etmək indi sizə çox lazımdır.

**OĞLAQ** - Maraqlı bir təqvim yaşayacağınız güman olunur. Əgər şərait olsa, işlə az məşğul olun. Çünki işdən kənarda daha çox uğurlarınız mümkündür. Bu gün ziyarətgaha getməyiniz yaxşı olar.

**SUTÖKƏN** - Qarşınızı kəsən maneələri dəf etmək üçün imkan qazanacaqsınız. Üstəlik, sevgi aləmində sürprizlərlə rastlaşacaqsınız. Səfərə çıxmaq, işgüzar söhbətlər aparmaq isə məsləhət görülmür.

**BALIQLAR** - Təəssüf ki, Göy qübbəsi ixtiyarınızda olan bu təqvimin mübahisəli keçəcəyini bəyan edir. Ələlxüsus da saat 14-17 aralığı əhvalınız pozula bilər. Özünüzü ələ alıb neytral mövqe tutun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qızının sevgilisi ilə evləndi



İngiltərədə yaşayan Marie Summers adlı qadın qızı Danninin sevgilisini əlindən alaraq hər kəsi heyrətləndirib. Marie indi də qızının keçmiş sevgilisi ilə evlənməyi planlaşdırır. Danninin sözlərinə görə, anası ilə sevgilisinin bir-birilərini sevdiyini öyrəndiyi zaman qəbul edə bilməyib. Əvvəlcə onları görmək istəməsə də daha sonra anasını itirməmək üçün sevgilisi ilə anasının münasibətini qəbul edib: "Anamla sevgilimin münasibətini öyrəndiyim zaman özümü pis hiss etdim. Bir daha onları görmək istəmədim, amma anamı itirmək istəmədim. Buna görə də onların münasibətini qəbul etdim. Onlarına toyuna getməyəcəyəm. Amma keçmiş sevgilimin ögey atam olması mənim üçün olduqca çətindir".

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300